Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

alman əməkdaşlığı
DEUTSCHE ZUSAMMENARBEIT

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ
PEŞƏ TƏHSİLİ ÜZRƏ
DÖVLƏT AGENTLİYİ



# TURİZMİN TƏŞKİLİ

Implemented by
giz Deutsche Gesellschaft für Internationale Zusammenarbeit (GIZ) GmbH

Deutsche Gesellschaft für
Internationale Zusammenarbeit (GIZ) GmbH
Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ)

Şirkətin oturum yeri
Bonn və Eşborn (Eschborn)
Qəbələ, İsmayıllı və Qax rayonlarının kənd təsərrüfatı və turizm sahələrində Dual Peşə Təhsili və Təlimi pilotların yaradılması (EDVET) layihəsi
Qış Parkı Plaza
Rəsul Rza küçəsi 75, 201-ci ofis
Tel. +994 (12) 599 91 20-25
Fax. +994 (12) 599 91 26
Email info@giz.de
https://www.giz.de/en/worldwide/367.html

Çap edilib
Fevral 2019

Müəlliflər
Vüsalə Məhərrəmova

Məzmun və dizayn
Quliyev Elmir
T. +994 51 829 68 10
guliyevproduction@gmail.com

Bu dərgi Avropa İttifaqının (EU) maliyyə yardımı ilə hazırlanmışdır. Sənədin məzmununa görə Seft Consulting məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul edilə bilməz.

“Qəbələ, İsmayıllı və Qax rayonlarının kənd təsərrüfatı və turizm sahələrində dual peşə təhsili və təlimi pilotların yaradılması (EDVET) layihəsi“ Avropa İttifaqı (EU) və Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyinin (BMZ) maliyyə dəstəyi ilə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ)  “Cənubi Qafqazda özəl sektorun inkişafı və peşə təhsili və təlimi regional proqramı” (PSD TVET) tərəfindən həyata keçirilir.

Açıqlama: Hazırki dərginin məzmununa və orada ifadə olunmuş fikirlərə görə EU, BMZ və GİZ məsuliyyət daşımır.

Qeyd 1: Bu kurikulumun hazırlanmasında  müvafiq  peşə standartından istifadə edilmişdir.
Qeyd 2: Dərgidə istifadə olunan şəkillər açıq mənbələrdən götürülüb.

# MÜNDƏRİCAT


Giriş 5

“Turizmin təşkili” modulunun spesifikasiyası 6

Təlim nəticəsi 1: İcmal ekskursiyanın təşkilini əsaslarını bilir və ekskursiyanın təşkil etməyi bacarır 7

1.1.1. Turizmdə istifadə olunan əsas termin və anlayışları sadalayır 7

1.2.1. Turizm tarixində turizmin inkişaf mərhələlərinin xüsusiyyətlərini vurğulayır 9

1.3.1. Turizmin formaları, növləri haqqında danışır 13

1.4.1. Turizm müəssisələrinin fəaliyyət dairəsini, turizm sənayesini və turizm ehtiyatarını müəyyən edir 15

1.5. Tələbələr üçün fəaliyyətlər 18

1.6. Qiymətləndirmə 19

Təlim nəticəsi 2: Turizm sənayesinin xüsusiyyətlərini bilir və təşkilini bacarır 20

2.1.1. Turoperatorun iş fəaliyyətinivə turizm sənayesini təşkil edən müəssisələri sadalayır 20

2.2.1. Yerləşdirmə müəssisələrinin oxşar və fərqli xüsusiyyətlərini vurğulayır 21

2.3.1. Turizmdə qidalanma müəssisələri haqqında ümumi məlumatları danışır 24

2.4.1. Nəqliyyat xidmətinin növlərini və xüsusiyyətlərini əlaqələndirir 26

2.5.1. Əyləncə, ekskursiyalar və onların təşkili xüsusiyyətlərini izah edir 30

2.6. Tələbələr üçün fəaliyyətlər 31

2.7. Qiymətləndirmə 32

Təlim nəticəsi 3: Azərbaycan və beynəlxalq turizm coğrafiyasını bilir və xəritə üzərində işləməyi bacarır 34

3.1.1. Azərbaycanın turizm bölgələri və mövcud olan kurort-rekresiya ehtiyatları barədə da nışır 34

3.2.1. Beynəlxalq turizmin inkişaf perspektivlərini qeyd edir 41

3.3.1. Avropa və Asiya ölkələrinin əsas turizm zonalarını əlaqəndirir 43

3.4.1. Amerika ölkələrinin əsas turizm zonalarını vurğulayır 46

3.5.1. Dünya ölkələrini xəritədə göstərir 48

3.6. Tələbələr üçün fəaliyyətlər 52

3.7. Qiymətləndirmə 53

# MÜNDƏRİCAT

Təlim nəticəsi 4: Turizmdə əməyin mühafizəsini bilir və təhlükəsizlik qaydalarına əməl edir 54
4.1.1. Turistlərin həyat və sağlamlığı üçün zərərli olan amillər barədə danışır 54
4.2.1. Turistlərin sığortalanması prosesinin vacibliyini vurğulayır 57
4.3.1. İstehsalatda təhlükəsizlik qaydalarına və turizm xidmətləri zamanı ətraf mühitin mühafizəsi barədə vurğulayır 58
4.4.1. Səyahət zamanı yaranacaq hər hansı bir fövqəladə hallarda ilk tibbi yardım göstərir 59
4.6. Tələbələr üçün fəaliyyətlər 61
4.7. Qiymətləndirmə 62
Ədəbiyyat 64

# GİRİŞ

Qeyri-neft sektoru olan turizmin inkişafı Azərbaycanda müasir peşə təhsilində fənn kurikulumlarını aktullaşdırır. Bu səbəbdən "Turizmin təşkili" modulu xidmət tədrisi kimi insan ehtiyaclarını öyrənir.

Avropa İttifaqının dəstəyi ilə təşkil olunmuş layihədə "Turizmin təşkili" modulu dörd təlim nəticəsini əhatə edir. Modulun əsas və ümumi məqsədi tələbələrə turizmin əsasları, Azərbaycan və Beynəlxalq turizm coğrafiyası, turizmdə təhlükəsizlik qaydalarını öyrətməkdir.

1-ci təlim nəticəsində tələbə - səyahət, turizm anlayışı və turizmin əsasları elminə yiyələnir.

2-ci təlim nəticəsində tələbə - turizm sənayesinin əsas xüsusiyyətlərini bilir və təşkilini bacarır.

3-cü təlim nəticəsində tələbə - Azərbaycan və beynəlxalq turizm coğrafiyasını bilir və sərbəst şəkildə dünya ölkələrini xəritə üzərində göstərməyi bacarır.

4-cü təlim nəticəsində tələbə - turizmdə əməyin mühafisəzini bilir və təhlükəsizlik qaydalarına əməl etməyi bacarır.

# “TURİZMİN TƏŞKİLİ” MODULUNUN SPESİFİKASİYASI

| |
|---|
| **Modulun adı:** Turizmin təşkili |
| **Modulun kodu:** 1 |
| **Saatlar və kredit:** 160 |
| **Modulun ümumi məqsədi:** Bu modulu bitirdikdən sonra tələbə, turizmin əsaslarını, Azərbaycan və beynəlxalq turizm coğrafiyasını, turizmdə təhlükəsizlik qaydalarını bilir. |

| |
|---|
| **Təlim nəticəsi 1: Səyahət, turizm anlayışını və turizmin əsaslarını bilir.** |
| Qiymətləndirmə meyarları |
| 1. Turizmdə istifadə olunan əsas termin və anlayışları sadalayır. |
| 2. Turizm tarixində turizmin inkişaf mərhələlərinin xüsusiyyətlərini vurğulayır. |
| 3. Turizmin formaları, növləri haqqında danışır. |
| 4. Turizm müəssisələrinin fəaliyyət dairəsini, turizm sənayesini və turizm ehtiyatarını müəyyən edir. |

| |
|---|
| **Təlim nəticəsi 2: Turizm sənayesinin xüsusiyyətlərini bilir və təşkili bacarır.** |
| Qiymətləndirmə meyarları |
| 1. Turoperatorun iş fəaliyyətini və turizm sənayesini təşkil edən müəssisələri sadalayır. |
| 2. Yerləşdirmə müəssisələrinin oxşar və fərqli xüsusiyyətlərini vurğulayır. |
| 3. Turizmdə qidalanma müəssisləri haqqında ümumi məlumat verir. |
| 4. Nəqliyyat xidmətinin növlərini və xüsusiyyətlərini əlaqələndirir. |
| 5. Əyləncə, ekskursiyalar və onların təşkili xüsusiyyətlərini izah edir. |

| |
|---|
| **Təlim nəticəsi 3: Azərbaycan və beynəlxalq turizm coğrafiyasını bilir və xəritə üzərində işləməyi bacarır.** |
| Qiymətləndirmə meyarları |
| 1. Azərbaycanın turizm bölgələri və mövcud olan kurort-rekresiya ehtiyatları barədə danışır. |
| 2. Beynəlxalq turizmin inkişaf perspektivlərini qeyd edir. |
| 3. Avropa və Asiya ölkələrinin əsas turizm zonalarını əlaqəndirir. |
| 4. Amerika ölkələrinin əsas turizm zonalarını vurğulayır. |
| 5. Dünya ölkələrini xəritədə göstərir. |

| |
|---|
| **Təlim nəticəsi 4: Turizmdə əməyin mühafizəsini bilir və təhlükəsizlik qaydalarına əməl edir.** |
| Qiymətləndirmə meyarları |
| 1. Turistlərin həyat və sağlamlığı üçün zərərli olan amillər barədə danışır. |
| 2. Turistlərin sığortalanması prosesinin vacibliyini vurğulayır. |
| 3. İstehsalatda təhlükəsizlik qaydalarına və turizm xidmətləri zamanı ətraf mühitin mühafizəsi barədə vurğulayır. |
| 4. Səyahət zamanı yaranacaq hər hansı bir fövqəladə hallarda ilk tibbi yardım göstərir. |

# TƏLİM NƏTİCƏSİ 1

### 1.1.1 TURİZMDƏ İSTİFADƏ OLUNAN ƏSAS TERMİN VƏ ANLAYIŞLARI SADALAYIR

SƏYAHƏT VƏ TURİZM ANLAYIŞI

Səyahət və turizm bir-birinə bağlı anlayışdır. Səyahətə çıxmış şəxs hər hansı bir məqsəd və hər hansı bir müddətə müxtəlif coğrafi məkanlar arasında hərəkət edən şəxsdir. Səyahət hərəkətsiz və ərazi yerdəyişməsi olmadan mümkün deyil. İlk kütləvi turizmi 1841-ci ildə Tomas Kuk, ilk fərdi nümunəvi (eksklyuziv) səfərləri isə Tomas Bennet təşkil etmişdir.

**Turizm** — fəal istirahətin ən geniş yayılmış kütləvi növüdür. Fransız sözü “tour”dan götürülən turizmin mənası “gəzinti”, “səfər” deməkdir. Turizm insanların öz daimi yaşayış yerlərinin hüdudlarından digər yerlərə hərəkətləri ilə əlaqədar sosial, mədəni və iqtisadi hadisələri əks etdirir, iqtisadiyyata, təbiətə, antropogen mühitə əsaslı təsir göstərir. **Ölkə vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müxtəlif məqsədlərlə daim yaşayış yerlərindən müvəqqəti getmələri “turizm” adlanır.** Turizmi səyahətdən ayıran əsas cəhət onun məqsədli və kütləvi olması, eyni zamanda iqtisadiyyata və siyasətə güclü təsir göstərməsidir.

**Turizm sahəsində istifadə olunan əsas terminlər**

**Turist** – sağlamlaşdırıcı, dərketmə, tanışolma, idman, dini və digər məqsədlərlə, haqqı ödənilən fəaliyyətlə məşğul olmamaq şərti ilə, 24 saatdan 12 aya qədər müddətdə müvəqqəti olaraq digər ölkəyə getməsidir.

**Ekskursiya** – mədəni maariflənmə məqsədilə edilən gəzintidir.

**Guide (Gid/Bələdçi)** – Tursitlərlə ekskursiyanın keçirilməsi ilə məşğul olan və bunun üçün lisenziyası olan şəxsdir.

**Camping (Kemping)** – Şəhərdən kənarda və ya hər hansı istirahət zonasında avtoturistlər üçün olan düşərgədir.



**Viza** – Xarici passportda ölkəyə giriş hüququnu təsdiq edən və mütləq çıxış qeydlərinin əks olunduğu rəsmi qeyddir (konsulluğun möhürü, qeyd vərəqəsi və s.).

**Sığorta** – polisi xəstəlik və ya travma hallarında tibbi xidmətin göstərilməsini təmin edən sənəddir. Səyahətlər zamanı ən çox tibbi sığorta tələb olunur.

**Tranzit** – Turistlərin bir ölkədən digər ölkəyə aralıq bir ölkə vasitəsilə daşınmasıdır.

**Transfer** – Turizm məkanının sərhədləri çərçivəsində turistin bir nöqtədən digərinə

avtomobil, gəmi və ya digər nəqliyyat vasitəsilə ilə çatdırılması, əsasən də, hava limanından otelə və ya əksinə.

**Tur** – konkret müddətdə konkret marşrut üzrə fərdi və ya qrup halında səfərdən ibarət olan, turizm məhsulunun vauçer şəklində satılan formasıdır.

**Turist paket** – Əvvəlcədən hazırlanmış, aviabilet, otel, transfer, görməli yerlərə səfərlər, sığorta, avtomobilin icarəsi və s. xidmətlərin qiymətini özündə əks etdirən tur.

**Turoperator** – turizm məhsulunun hazırlanması ilə məşğul olan, turları komplektləşdirən, bazarda turizm məhsulunun reklamını və irəliləyişini təşkil edən, turların qiymətini müəyyənləşdirən və öz lisenziyası əsasında realizə olunması üçün turaqentə satan turizm təşkilatı.

**Turagent** – Turoperator tərəfindən hazırlanan turizm məhsulunu realizə edən və bilavasitə turizm bazarında işləyən vasitəçi.

**Voucher/vauçer (turistik və ya nəqliyyat)** – Turistin bu və ya digər turizm xidmətinin (mehmanxana, ekskursiyalar, transfer və s.) ödənişini təsdiq edən sənəd. Sənəddə turistin adı, familyası, xidmətin növü, xidmətin başlanma və bitmə tarixi və saatı, xidməti göstərən şirkətin əlaqə vasitələri və s. məlumatlar əks olunur.

**Açıq bilet** – biletdə gediş tarixi göstərilir, lakin dönüş tarixi göstərilmir və turist qərar verdiyi zaman biletə dönüş tarixi qoyulur. Lakin nəzərə almaq lazımdır ki, açıq bilet istənilən zaman istənilən reyslə qayıtmaq imkanı demək deyil.

**Elektron bilet** – elektron formada rəsmiləşdirilmiş biletdir. Kağız biletdən fərqli olaraq elektron bilet aviaşirkətin məlumat bazasında əks olunan şifrələnmiş məlumatları əks elətdirir və kağız biletdən fərqli olaraq, heç bir xüsusi blank formada çapı tələb etmir.

**VİP (Very important passenger)** – Xüsusi xidmətlər nəzərdə tutulmuş sərnişindir.

**Turizm sənayesi** – mehmanxana və digər yerləşdirmə vasitələrinin, ictimai iaşə, əyləncə obyektləri, tanış olma, idraki, iş-peşə, sağlamlaşdırma, idman, turoperator, turagent fəaliyyətini həyata keçirən ixtisaslaşdırılmış müəssisələrin, həmçinin ekskursiya və bələdçi xidmətləri göstərən təşkilatların məcmusudur.

**Turizm məhsulu** – turistlərin yerləşdirilməsi, daşınması, yeməyi üzrə xidmətlər kompleksi, ekskursiya, bələdçi xidmətləri və səfərin məqsədlərindən asılı olaraq göstərilən xidmətlər kompleksidir.

**Turizm xidməti** – turizm müəssisəsinin turistlərin, istehlakçıların tələbatının ödənilməsinə yönəldilmiş fəaliyyətidir.

**Turizm ehtiyatı** – səfər edilən ölkənin təbii, mədəni, tarixi, sağlamlaşdırma obyektləri

məcmusudur.



**Aİ (All inclusive – hər şey daxil)** – təkcə gündə 3 dəfə qidalanmanın deyil, bir çox əlavə xidmətlərin də qiymətə daxil olduğu yerləşmə növü.

**BB (bed and breakfast** – səhər yeməyi daxil) – oteldə səhər yeməyi daxil yerləşdirmə nəzərdə tutulur.

**DBL (double – iki)** – iki nəfərlik nömrə

**FB (full board – tam pansion)** – oteldə gündə 3 dəfə qidalanma (səhər+nahar+şam) rejimi nəzərdə tutulur. Nahar və şam yeməyi zamanı içkilər çox zaman bu qiymətə aid edilmir.

**HB (half board – yarım pansion)** – oteldə gündə 2 dəfə qidalanma rejimi. Adətən, bu səhər və axşam yeməyi olur.

**SGL (single – tək)** – bir nəfərlik nömrə

**SV (sea view)** – dəniz mənzərəli nömrə

**TRPL (triple – üç)** – üç nəfərlik nömrə

**Suite** – lüks nömrədə yerləşdirilmə

### 1.2.1. TURİZM TARİXİNDƏ TURİZMİN İNKİŞAF MƏRHƏLƏLƏRİNİN XÜSUSİYYƏTLƏRİNİ QEYD EDİR

TURİZMİN YARANMA TARİXİ

Turizmin kökləri ibtidai icma quruluşuna gedib çıxır. O zamanlar insanlar əlverişli məkan axtarmaq məqsədilə yerlərini dəyişirdilər. Öz qəbiləsinin yaşadığı məskənlərin ətrafından başlanan ibtidai səyahətlər daha sonralar uzaq səfərlər, dəniz və çaylarla edilən səyahətlərlə əvəz olunmuşdur. Zaman keçdikcə insanlar bir çox ölkələrin mədəniyyətini, təbiətini öyrənmək marağı ilə səyahət edirdilər. Tarixən səyyahlar (Xristafor Kolumb (1451-1506), Vasko da Qama (1469-1524), Fernan Magellan (1480-1524), Ceyms Kuk (1728-1779), Jan Fransua Laperuz (1741-1788) və başqaları) səyahət vasitəsilə (xüsusilə, Böyük coğrafi kəşflər dövründə) böyük materiklər, qitələr, yeni torpaqlar kəşf etmişlər.





Bizə məlum olan ilk səyyahlar məhz tacir və zəvvarlar olmuşdur. Ziyarətlər turizmin inkişafında mühüm rol oynayırdı. Dini etiqadlar milyonlarla insanı müqəddəs yerləri ziyarət etməyə sövq edirdilər. Müsəlmanlar Məkkəyə, xristianlar Qüdsə, Romaya, atəşpərəstlər Azərbaycana və digər yerlərə üz tuturdular. Azərbaycanın Böyük İpək yolu üzərində yerləşməsi turizmin inkişafında müstəsna rol oynamışdır.  İlk pulun b.e.ə. IV minilliyin əvvəllərində icad olunması, ticarətin və səyahətin başlanğıc erası kimi qəbul olunmasına təkan vermişdir.

Kütləvi turizm və səyahət ənənələri hələ XVIII əsrdə yaranmağa başlanmışdır. Ayrı-ayrı adamların diqqətəlayiq yerləri seyr etməklə yanaşı, mineral sularla müalicəyə, dəniz sahillərinə, dünyanın məşhur paytaxt şəhərlərinə səyahətləri – müasir turizmin bünövrəsi hesab edilir. Amma o dövrdə insanlar müstəqil, hər hansı bir təşkilat və fırmaların köməyi olmadan səyahət edirdilər.

Turizm insanların öz daimi yaşayış yerlərinin hüdudlarından digər yerlərə hərəkətləri ilə əlaqədar sosial, mədəni və iqtisadi hadisələri əks etdirir. "Turizm" termin kimi ilk dəfə olaraq, 1830-cu ildə V. Jemko tərəfindən  istifadə edilmişdir. 1954-cü ildə Birləşmiş Millətlər Təşkilatının yığıncağında «Turizm» sözü müzakirə olunmuş, onun beynəlxalq mahiyyəti, sosial-iqtisadi əhəmiyyəti müəyyənləşdirilmişdir. BMT-nin qəbul  etdiyi rəsmi anlayışa görə turizm ⊠ insanın sağlamlığı və fiziki inkişafının möhkəmləndirilməsinə təsir edən, həmçinin daimi yaşayış yerindən kənara hərəkətlə əlaqəli aktiv istirahət kimi qeyd olunmuşdur.

**Turizmin inkişaf mərhələləri**

**1. Qədim və Orta əsrlərin ticarət karvanları mərhələləri**



Azərbaycan dövlətinə ilk səyahətlər ticarət, dini, siyasi və dərketmə məqsədləri ilə əlaqəli olmuşdur. Qədim Azərbaycan ərazisindən keçən ticarət karvanlarının hərəkətini ilk səyahətlər hesab etmək olar.

Azərbaycan hələ qədim dövrlərdə Böyük İpək Yolu üzərində mühüm dayanacaq kimi tanınan bir ölkə olmuşdur. Çoxillik arxeoloji tədqiqatlar göstərir ki, Böyük İpək Yolu ilə gətirilən antik mallar, Qafqaz Albaniyasının əsas şəhərlərinə Qəbələ, Şamaxı və Bərdə şəhərlərinə  göndərilirdi. Orta Asiya, Hindistan və Çindən Azərbaycana gətirilən malların bir hissəsi Gürcüstana, Qara dəniz sahillərinə, Xəzər sahili boyunca Şamaxı–Dərbənd Şimali Qafqaz istiqamətində göndərilirdi. İpək yolu trassı üzərində yerləşən Təbriz, Marağa, Ərdəbil, Gəncə, Naxçıvan, Ordubad, Nuxa (Şəki) Azərbaycanın mühüm beynəlxalq ticarət mərkəzlərinə çevrilmişdi.

**2. Böyük coğrafi kəşflərdən XIX əsrin sonlarına qədər olan mərhələ**



Rusiyadan İrana və Hindistana gedən dəniz və quru yollarının ayrıcında yerləşən Azərbaycanın XIV əsrin ortalarında Qərblə Şərq arasında ticarət əlqələrində böyük rolu var idi. Müxtəlif dövrlərdə Azərbaycanda olmuş tarixçilər, səyyahlar, tacirlər, diplomatlar (Marko Polo, Ryui Qonzales Klaxvio, Afanasi Nikitin, İosafat Barbaro, Ambrozio Kontarini, Antoni Cenkinson, Vincensi Alesandri, Sadko, Övliyə Çələbi, Fedor Kotov) Azərbaycanın Avropa ilə Asiya arasındakı əlverişli mövqedə yerləşməsi barədə öz səyahətnamələrində qeyd etmişlər.

**3. XIX əsrin sonu XX əsrin ortalarına qədər olan kütləvi turizm mərhələsi**



XIX əsrin sonlarında XX əsrin əvvəllərində Rusiya imperiyası tərkibinə daxil olduqdan sonra Azərbaycanda turizm–ekskuriya işinin inkişafı Rusiya ilə bağlı olmuşdur. Bu dövrdə turizmin inkişafına elmi və həvəskar cəmiyyətlər (coğrafiya cəmiyyəti, təbiəti sevənlər cəmiyyəti, xalq universitetləri cəmiyyəti və b.) diqqət yetirməyə başladılar.

**4. Müstəqillik dövrünə qədər (1950-1991)**

İkinci dünya müharibəsi illərində (1939-1945) bütün SSRİ–də olduğu kimi Azərbaycanda da turizm ekskursiya fəaliyyəti dayandırıldı. Müharibədən sonrakı illərdə idman, özfəaliyyət, ailəvi və uşaq turizmi geniş vüsət tapmağa başladı.

1950–ci il sentyabr ayında Bakı turist bazası yaradıldı. Bu bazanın nəzdində bir çox regionlarımızda – Mingəçevir, Naftalan Hacıkənd, Zaqatala, Şuşa, Xaçmaz, Sumqayıt, Naxçıvan və s. turist bazaları və ekskursiya büroları fəaliyyətə başladı.



Turist bazasının və ekskursiya bürolarının yaradılması 1970–1987–ci illər ölkədə sosial turizmin inkişafına təkan verdi. Xarici turizmin maddi–texniki bazasını genişləndirmə məqsədi ilə 1973–cü ildə Bakıda Azərbaycan Respublikasında ən böyük mehmanxana kompleksi olan "Azərbaycan" mehmanxanası, 1978–ci ildə "İnturist" səhmdar cəmiyyətinin tabeliyində 200 yerlik komfortlu Moskva mehmanxanası yaradıldı.

1988–ci ildə Dağlıq Qarabağ–Ermənistan arasında  baş verən hadisələr  nəticəsində Azərbaycana daxilivə xarici turistlərin axını xeyli azalmışdır. Xankəndi, Şuşa, Sumqayıt, sonra isə Bakıda fövqəladə vəziyyətin elan olunması  bir sıra turizm təşkilatlarının fəaliyyətlərinin dondurulmasına səbəb oldu.

**5. Müstəqillikdən sonrakı mərhələ**

1990–cı ilin əvvələrindən etibarən Azərbaycanda fəaliyyət göstərən ümumittifaq və beynəlxalq turist marşrutları ləğv olundu. Müharibə və sərhədlərdəki qeyri-stabil vəziyyət turizm sistemində başqa problemlərin yaranmasına da səbəb olmuşdur. Lakin 1991-ci ilin oktyabrında Azərbaycan Respublikası müstəqillik əldə etdi.

1991-ci illərdən sonra Azərbaycanın yeni ictimai-iqtisadi inkişaf yoluna qədəm qoyması, açıq bazar iqtisadiyyatı sisteminə qoşulması onun beynəlxalq turizmdə iştirakı məsələsi ön plana çəkilmişdir. 1999-cu ildə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin fərmanı əsasında «Turizm haqqmda qanun» qəbul edilmişdir. Prezidentin fərmanına uyğun olaraq 2002-ci ildə «2002-2005-ci illərdə Azərbaycanda turizmin inkişafı proqramı» qəbul edilmişdir. Turizmin inkişafında dönüş yaratmaq məqsədilə 2005-ci ildə «Gənclər, İdman və Turizm Nazirliyi» bazasmda «Mədəniyyət və Turizm Nazirliyi» yaradılmışdır.

2011-ci ilədə respublikamızda "Turizm ili" nin elan olunması Azərbaycan turizmin inkişafında əsaslı dönüş yaratdı.

Hazırda Bakıda və digər regionlarımızda beynəlxalq standartlara uyğun mehmanxana şəbəkələri, turist istirahət mərkəzləri tikilərək yerli və xarici qonaqların istifadəsinə verilmişdir.






### 1.3.1. TURIZMIN FORMALARI VƏ NÖVLƏRI HAQQINDA DANIŞIR.

TURİZM SƏNAYESİ, MÜƏSSİSƏLƏRİ VƏ ONLARIN ƏSAS FUNKSİYALARI

Turizm anlayışı çox geniş olduğundan o həm də çox şaxəlidir. Turizmin tip kateqoriya, növ və formalara görə təsnifatı geniş yayılmışdır. Turizmin növləri ölkələrin daxili meyarlarına, turizmin formaları isə xarici meyarlarına görə təsnif edilir. Turizmin formaları bir şəxsin və ya qrupun turizm fəaliyyətinin təşkilidir. ÜTT-nin tövsiyələrinə görə daxili, getmə, gəlmə turizm formaları mövcuddur. Bu turizm formaları ölkə hüdudlarında turizm (gəlmə və daxili turizm), milli turizm (daxili və getmə turizm), beynəlxalq turizm (gəlmə və getmə turizm) kateqoriyalarını əmələ gətirir.

Beynəlxalq turizm – daim yaşayış yeri olan ölkənin sərhədlərindən kənara turizm məqsədilə insanların səyahətidir. Beynəlxalq turizmdə müəyyən rəsmiyyətçilik (xarici pasport, viza, gömrük və s.) mövcuddur.



Daxili turizm – beynəlxalq turizmdən fərqli olaraq, dövlət sərhədlərini keçmək ilə əlaqədar olmadığından turizm rəsmiyyətçiyi tələb edilmir. Daxili turizm – daimi yaşayış yeri olan ölkənin sərhədləri daxilində turizm məqsədləri ilə insanların səyahətidir. Daxili və beynəlxalq turizm arasında mövcud fərqlər olmasına baxmayaraq, hər iki turizm forması bir-biri ilə sıx şəkildə əlaqəlidir. Daxili turizm yeni ərazi və turizm ehtiyatlarının mənimsənilməsini, turizm bazalarının yaradılmasını, mütəxəsislərin hazırlanmasını şərtləndirməklə vahid turizm məkanını formalaşdırır.

**Turizmin növləri**

Məqsədinə görə turizmin aşağıdakı növləri vardır:

– **dərketmə və ya tarixi-mədəni turizm** – təbii, tarixi-amədni abidələr, muzey, teatr, ictimai tikililər, xalqların həyatı və adət-ənənəsi ilə tanış olmaq məqsədilə edilən səyahətdir;

– **işgüzar turizm** – elmi konfrans və konqres, seminar, müqavilələrin bağlanması, forum, beynəlxalq danışıq, mükafatlandırma, sərgi və yarmarkada iştirak etmək üçün səyahət etməklə, 3 növə – biznes-turizm, konqres-sərgi, intensiv-turizmə ayrılır;

– **etnik və ya nostalji turizm** – beynəlxalq turizmdə əhəmiyyətli yer tutan, qohumlarla görüşmək və ya valideynlərin anadan olduqları ata-baba yurduna səyahət etməklə bağlı olan turizm

növüdür. Turistlərin bu kateqoriyası ekskursiyaçı adlanır.

– **dini turizm** – zəvvarlıq, dini abidələr, məscid, məbəd, monastrları görmək, dinlərin tarixi haqqında biliklər əldə etmək məqsədilə edilən səyahətdir;

– **rekreasiya turizmi** – istirahət məqsədilə asudə vaxtda insanların fiziki, mənəvi, psixoloji, emosional gücün bərpa etmək üçün səyahət;

– **təhsil turizmi** – bilik almaq və ya təkmilləşdirmək məqsədilə səyahət etməklə, 15 gündən 3 aya qədər davam edən səyahət;

– **ekzotik turizm** – gündəlik həyatda müşahidə edilməyən qeyri-adi nə isə görmək və hiss etmək – fərqli flora və fauna, müxtəlif xalqların mətbəxi, memarlıq nümunələri, milli xüsusiyyətləri ilə əlaqədar edilən səyahət;

– **ekoloji turizm** –təbii zənginliklərlə tanışlıq, ətraf mühitə həssaslıq və qayğı ilə yanaşmaq, təbiəti çirkləndirmədən və zərər vurmadan edilən səyahət;

– **müalicə turizmi** –kurortlarda müxtəlif xəstəliklərin təbii vasitələrlə - iqlim, palçıq, mineral su və s. müalicəsinə əsaslanan səyahət;

– **macəra turizmi** – fiziki cəhətdən ağır, çox vaxt isə həyat üçün təhlükəli olan anlayışdır. Ekzotik ərazilərə səyahət (vulkan, ada, şəlalə, dağ, fəlakət yerləri) məqsədilə edilən gəzinti;

– **idman turizmi** – səyahətdə istənilən idman növü ilə məşğulluq və idman tədbirlərində tamaşaçı qismində iştirak etmək məqsədilə edilən səyahət;

– **ritual turizm** – qohumların, həlak olan döyüşçülərin məzarını zi¬yarət edilməsi məqsədi ilə həyata keçirilən səyahət;

– **kənd turizmi** – kənd həyat tərzinə uyğunlaşmaq, kənddə ailə təsərrüfatının idarə edilməsi ilə tanışlıq, ekoloji cəhətdən təmiz ərazilərdə istirahət və sağlamlıq məqsədilə edilən səyahət;

Dağlar və meşələrlə əhatə olunmuş turist obyektləri düzənlik və səhra turist obyektlərindən fərqlidir. Belə ərazilərdə maraqlı nəqliyyat vasitələrindən istifadə etmək qismən çətin olduğundan turizmin əsasən aşağıdakı növlərindən istifadə olunur:

– Piyada turizm;

– Xizək turizmi;

– At belində turizm;

– Dağ turizmi;

– Su turizmi və s.

Mövsümə görə turizmin təsnifatında aktiv, mövsümlərarası və birmövsümlü turizm növləri də mövcuddur.

### 1.4.1. TURİZM MÜƏSSISƏLƏRININ FƏALİYYƏT DAİRƏSİNİ, TURİZM SƏNAYESİNİ VƏ TURİZM EHTİYATLARINI MÜƏYYƏN EDİR

TURİZM SƏNAYESİ, MÜƏSSİSƏLƏRİ VƏ ONLARIN ƏSAS FUNKSİYALARI

Müasir dövrdə turizm iqtisadiyyatın bir sahəsi kimi özünə möhkəm yer tutmuşdur. Bir çox müəssisələr, təşkilatlar və şirkətlər öz fəaliyyət istiqamətini turizm xidməti sahəsində tapırlar. Turizmdə keyfiyyət – bu sahənin inkişafının ən aktual problemlərindən biridir. Beynəlxalq turizm bazarında xidmət keyfiyyəti rəqabət üçün güclü silahdır. Müəyyən ölkələrin mehmanxanalarında, restoranlarında, xidmət bürolarında, turist komplekslərində xidmətdən razı qalan turistlər onların fəal təbliğatçıları olurlar. Onların təkrarən bu yerlərə baş çəkməsi turist axınının artmasına və eyni zamanda turizm bölgəsinin şöhrətinin daha da yüksəlməsinə səbəb olur. Nəticədə xidmət keyfiyyəti turizmin iqtisadi səmərəliliyini artırır. Turizmin inkişafı ölkədə işsizlik kimi ağır bir problemin öhdəsindən gəlir, ölkə təsərrüfatının bütün sahələrinə təsir göstərir və onların inkişafını stimullaşdırır.

“Turizm sənayesi” anlayışının bir çox tərifləri mövcuddur. Bu anlayışa daha dəqiq proqnozu 1971-ci ildə BMT tərəfindən edilən konfransda verilmişdir. Tərifə görə “turizm sənayesi” anlayışı səyahətçilər üçün mal və xidmətin yaradılması məqsədini güdən istehsal və qeyri-istehsal fəaliyyət növlərinin cəmindən ibarətdir. Turizm sənayesi dedikdə, səyahəti həyatə keçirmək prosesində turistə lazım olan hər şeylə (xidmət, məhsul) təmin edən müəssisələrin və sahikarların qarşılıqlı əlaqə sistemi başa düşülür. Yerləşmə, nəqliyyat, vasitələri, ictimai iaşə, əyləncə, dərketmə, işgüzar,sağlamlıq, idman, turoperator, turagent, ekskursiya vəbələdçi-tərcüməçi xidmətləri turizm sənayesinin əsas iş prinsipidir.

Turizm sənayesi həm iri, həm də sürətli inkişafedən sənaye sahəsidir. Turizm sənayesinə daxil olan müəssisələr tərəfindən göstərilən xidmətlər özəl, dövlət, ictimai sektorlara bölünür. Dövlət və ictimai bölməyə milli və regional turizm şirkətləri, yerli turizm şirkətləri, dəniz vəhava limanları, pasport-viza idarələri və s. aiddir. Özəl bölməyə isə turizm məlumat mərkəzləri, qida, bələdçi xidmətləri, sığorta idarələri, pul və kreditlərin verilməsi ilə bağlı müəssisələr, şəxsi limalar daxildir.

Turistlərə müvafiq xidmətlərin göstərilməsi ilə onların təlabatlarını ödəyən müxtəlif müəssisələr mövcuddur. Turizm müəssisələrinin fəaliyyət dairəsinə görə müxtəlif qrup və tiplərə görə təsnifatlaşdırılır:

√ Turistlərin daşınması ilə məşğul olan nəqliyyat müəssisələri;
√ Mehmanxana xidmətləri göstərən müəssisələr;
√ İctimai iaşə müəssisələri;
√ Turizm tədbirlərinin təşkilini, vasitəçilik və agent funksiyalarını həyata keçirən müəssisələr

(turoperator və turagentlər);

√ İdman-sağlamlıq, rekreasiya, əyləncə xidmətləri göstərən müəssisələr;




Turistləri səfər məntəqəsinə və geriyə daimi yaşadığı yerə çatdırmaq vəzifəsini yerinə yetirən təşkilatlar vardır ki, bunlar da nəqliyyat müəssisələridir. Nəqliyyat vasitələrinin texniki cəhətdən təkmilləşdirilməsi, daha komforlu, sürətli, təhlükəsiz olması turistlərin səfər çıxmasını həvəsləndirir. Nəqliyyat vasitələri arasında hava nəqliyyatından daha çox istifadə edilməsinin səbəbi qısa müddətli, uzaq, fərqli mədəniyyətə, təbiət ekzotikliyinə malik olan ərazilərdə keçirmək imkanı yaratmasıdır.

Turistlər gecələmək üçün yerləşmə vasitələrinin hər hansı bir növdən istifadə etməli olurlar. Zaman keçdikcə **yerləşdirmə müəssisələrində** təqdim olunan xidmət formaları artır. Mehmanxalar öz fəaliyyətlərini yerləşdikləri əraziyə, təqdim etdikləri xidmət növünə və turist seqmentinə görə qururlar. Yüksək ulduzlu mehmanxana şəbəkələri, konqres-otellər və s. iri şəhərlərdə, nəqliyyat qovşaqlarının intensiv olduğu yerlərin yaxınlığında yerləşirlər. Tarixi malikanələrdə, qəsrlərdə, karvansaralarda yerləşdirmə müəssisələri açılır ki, bunlar da qədimliyi ilə turistlərin diqqətini cəlb edir.

İctimai iaşə müəssisələrinə restoran, bar, kafe, bufet, yeməkxana, srətli xidmət göstərən qida müəssisələri (fast food) və s. aid edilir.







Turizm sahəsində müştərilərin cəlb edilməsi üçün müxtəlif attraksionlar işə salınır, şou proqramlar təklif olunur.

Turizm müəssisələri öz fəaliyyət dairəsinə görə **turoperator** və **turagentlərə** bölünürlər. Turoperatorlar müxtəlif səpgili xidmətlərlə komplektləşdirilmiş turizm məhsulunu təqdim etdiyi halda, turagentlər turistlərlə xidmət təminatçıları arasında vasitəçi işini yerinə yetirir.

**Turizm ehtiyatları**



Rekreasiya-turizm potensialı tükənməyən təbii, anropogen, sosial-iqtisadi resurslara əsaslanır. Turizm resursları – təbii, iqlim, tarixi-arxitektur, dini, sosial-mədəni, mənəvi-irsi nümunələri özündə birləşdirir. Turizm ehtiyatlarından istifadənin əsas səbəbi turistlərdə yaranan maraq və təəssüratdır. Turistlərin marağına səbəb olan obyektlər - tarixi-mədəni dəyərləri özündə birləşdirən yerlər, təbiət obyektlərivə təbii iqlim əraziləridir. Turizm ehtiyatı dedikdə: təbii, iqtisadi, tarixi, mədəni, irsi, milli, etnoqrafik kompanentlər, landşaft ekzotikliyi, iqlim komfortluluğu, təbiət abidələri, milli parklar, qoruqlar, yasaqlıqlar nəzərdə tutulur. Turizm ehtiyatlarının uzunmüddətli istifadəsi onun yerləşdiyi ərazinin coğrafi xüsusiyyətlərindən asılıdır. Belə ki, turizm ehtiyatları müəyyən bir ərazidə yığcam cəmlənirsə bunlar rekresiya təssərüfatın inkişafı ilə yanaşı onun uzunmüddətli istifadəsinin də təmin olunmasına xidmət edir.

İstifadə olunma məqsədinə görə turizm ehtiyatları 3 əsas hissəyə bölünür:

- **Təbii-iqlim ehtiyatları** - mikroiqlim resursları, hava, mənzərə, dəniz, göl, çay, dağ, meşə, mineral sular, bulaqlar, baleneloji resurslar, təbiət abidələri;
- **Antropogen ehtiyatlar** - mədəni-tarixi və insan əli ilə yaradılmış obyektlər, arxeoloji qazıntılar, tarixi hadisələrin baş verdiyi yerlər, memarlıq və şəhərsalma obyektləri, muzeylər, rəsm qaleriyaları, teatr, sərgi və s.;
- **Etnoqrafik ehtiyatlar** - turistləri yerli milli adət ənənələr, məişət, xalq yaradıcılığı və s. tanış etmək;








## 1.5. TƏLƏBƏLƏR ÜÇÜN FƏALİYYƏTLƏR



- Tələbələr üçün fəaliyyətlər
- Turizmi səyahətdən ayıran əsas cəhətləri göstərin.
- Turizm sahəsində istifadə olunan əsas terminləri sadalayın.
- Vauçerdə hansı lazımı məlumatların daxil edildiyini qeyd edin.
- HB və BB qidalanma rejiminin oxşar və fərqli xüsusiyyətlərini müzakirə edin.
- İlk pulun icad edilməsinin turizmin formalaşmasında əhəmiyyətini müzakirə edin.
- Kütləvi turizmin yaranma amilləri haqqında məlumat toplayın.
- “Turizm” anlayışını müəyyən edən fərqli yanaşmaları araşdırın.
- Turizmin inkişaf mərhələləri və müasir turizm perspektivlərindən məlumat toplayın.
- Turizmin növlərinin hansı meyarlara əsasən təsnif edildiyini qeyd edin.
- Daxili turizm ilə beynəlxalq turizm formasının oxşar və fərqli cəhətlərini müzakirə edin.
- Turizm rəsmiyyətçilik anlayışı haqqında məlumat araşdırın.
- Məqsədinə görə turizmin növlərini qruplaşdırın.
- Turizm sənayesi anlayışına aydınlıq gətirin.

## 1.6. QİYMƏTLƏNDİRMƏ

Öyrənmə prosesinə bağlı olan qiymətləndirmə meyarı:
**"Turizmdə istifadə olunan əsas termin və anlayışları sadalayır".**

- Kütləvi turizmin ilk təşkilatçısı kim olmuşdur?
- Viza nədir və hansı hallarda istifadə olunur?
- Elektron biletin açıq biletdən üstünlüyü nədən ibarətdir?
- Səyahət zamanı sığortanın turist üçün nə kimi əhəmiyyəti vardır?
- Yerləşdirmə obyektlərində hansı növ qidalanma rejimləri vardır?
- Ekskursiyanı səyahətdən hansı amillər ayırır? Oxşar və fərqli cəhətləri hansılardır?

**"Turizm tarixində turizmin inkişaf mərhələlərinin xüsusiyyətlərini qeyd edir".**

- Kütləvi turizmin ilk təşkilatçısı kim olmuşdur?
- Böyük coğrafi kəşflər hansı dövr əhatə edir?
- Azərbaycanda "Turizm qanunu" nə vaxt qəbul edilmişdir? Qanunun qəbul edilməsi ilə turizmin inkişafında hansı irəliləyişlərə rast gəlinmişdir?
- Turizm termini hansı qurum tərəfindən qəbul edilib və nəticədə hansı turizm anlayışı tövsiyyə olunmuşdur?
- XX əsrin əvvələrində turizm sahəsində durğunluq hansı səbəbdən yaranmışdır?

**"Turizmin formaları və növləri haqqında danışır."**

- Turizmin hansı formaları vardır?
- Turizmin hansı formasında turizm rəsmiyyətçiyindən istifadə olunmur?
- Ritual turizm nədir?
- Mövsümünə görə hansı turizm növləri mövcuddur?
- Dərketmə və ya tarixi-mədəni turizm növü hansı məqsədlə istifadə olunur?

**"Turizm müəssisələrinin fəaliyyət dairəsini, turizm sənayesini və turizm ehtiyatlarını müəyyən edir"**

- Turizm sənayesinin inkişafı iqtisadiyyata nə kimi təsir göstərir?
- Turizm sənayesi nədir və termin kimi nə vaxt qəbul edilmişdir?
- Turizm sənayesini təşkil edən hansı müəssisələr mövcuddur?
- Turoperatorun iş funksiyası nədən ibarətdir?
- Turizm ehtiyatları anlayışı dedikdə nə başa düşülür?

### 2.1.1. TURİZM SƏNAYESİNİN XÜSUSİYYƏTLƏRİNİ BİLİR VƏ TƏŞKİLİ BACARIR

TURİZM SƏNAYESİNİN ƏSAS MÜƏSSİSƏLƏRİ

Turizm sənayesi ölkə iqtsadiyyatının əsas gəlir mənbəyi hesab olunur. bu sahənin inkişafı üçün dövlətlər tərəfində layihə proqramları hazırlanaraq, qəbul edilir. Dövlət tərəfindən investisiyaların qoyulması turizm sahibkarlarının arasında müəyyən rəqabətin yaranır və nəticəsində turizm sənayesin inkişaf tempi artır.

Turistlərə müvafiq xidmətlərin göstərilməsi ilə onların tələbatlarını ödəyən müxtəlif müəssisələr mövcuddur. Turizm müəssisələrinin fəaliyyət dairəsi müxtəlif qrup və tiplərə görə təsnifatlaşdırılır:

√ Turistlərin daşınması ilə məşğul olan nəqliyyat müəssisələri;
√ Mehmanxana xidmətləri göstərən müəssisələr;
√ İctimai iaşə müəssisələri;
√ Turizm tədbirlərinin təşkilini, vasitəçilik və agent funksiyalarını həyata keçirən müəssisələr (turoperator və turagentlər);
√ İdman-sağlamlıq, rekreasiya, əyləncə xidmətləri göstərən müəssisələr;

**Turoperatorun iş funksiyası**

Turizm fəaliyyəti ilə məşğul olan hər bir fiziki və ya hüquqi şəxsin qarşında dövlətin tələb etdiyi öhdəliklər vardır. Turizm sənayesində hər hansı bir fəaliyyətlə məşğul olmaq üçün ölkəsinin aidiyyati turizm nazirliklərindən lisenziya (razılıq) almalıdır. Müraciət edən şəxs dövlətin müəyyən şərtlərinə əsasən, sənədlərini təqdim etməli və müvafiq dövlət rüsumu ödəməklə 5 il müddətində turizm fəaliyyəti lisenziyasını əldə etmək imkanına malikdir.



Turoperator turizm bazarının ən aktiv üzvlərindəndir. Turoperatorlar kommersiya məqsədləri ilə turizm məhsullarının planlaşdırılması, işlənib-hazırlanması, hərəkətə gətirilməsi, satışı və reklamını həyata keçirirlər. Onların əsas iş funksiyalarına aiddir:

• müştəriləri turlar və turizm proqramları ilə tanış etmək;
• turistlərin tələbinə uyğun xidmət proqramlarının hazır etmək;
• turların qiymətinin bazar şəraitinə uyğun müəyyən etmək;
• turistlərlə iş görən mütəxəsis kadrların hazırlanması,seçilməsi və təyin edilməsi, bələdçi, animator, metodistlərin və s. işini əlaqəndirmək;

• xidmət təminatçıları ilə əməkdaşlıq etmək;

Turoperatorların turizm sənayesini təşkil edən müəssisələrin xidmət təminatçıları ilə əməkdaşlıq məqsədlərinə aşağıdakı səbəbləri göstərmək olar.



- yerləşdirmə obyektləri ilə - turistlərin yerləşdirilməsi üçün;
- qidalanma obyektləri ilə - turistləri qida ilə təmin etmək üçün;
- nəqliyyat müəssisələri ilə - turistlərə daşınma və digər nəqliyyat xidmətlərinin göstərilməsi üçün;
- ekskursiya təşkilatları, muzeylər, sərgi salonları, teatr rəhbərləri, idman qurğuları və digər təşkilatlarla - turistlərin asudə vaxtlarından səmərəli keçməsi üçün;
- Milli parkların, qoruq, ovçuluq, balıqçılıq təsərrüfatların rəhbərliyi ilə - turistlərin istirahətini düzgün şəkildə təşkil etmək üçün;
- Yerli bələdiyyə və icra hakimiyyəti orqanları ilə - turizm məhsulunun təbliği üçün;

### 2.2.1. YERLƏŞDİRMƏ MÜƏSSISƏLƏRİNİN OXŞAR VƏ FƏRQLİ XÜSUSİYYƏTLƏRİNİ VURĞULAYIR

YERLƏŞDİRMƏ OBYEKTLƏRİNİN İŞ PRİNSİPİ

Turizm sənayesini təşkil edən əsas sahələrdən biri yerləşdirmə müəssisələridir. Səyahət zamanı turistlərin müraciət edəcəyi vacib fəaliyyət növlərindən biri gecələməkdir. Turizm sənayesində daima və ya fasilələrlə gecələmək üçün yerlər təklif edən obyektlər yerləşmə müəssisələri adlanır. Yerləşməyə görə mehmanxanalar şəhər mərkəzi, şəhər kənarı, dağlar və dəniz kənarına olur. Dəniz kənarında yerləşən mehmanxanalar adətən lüks və orta dərəcəli, dağ və şəhər kənarında yerləşən mehmanxanalar isə yay və qış istirahətləri üçün nəzərdə tutulur. Yerləşmə müəssisələrinə mehmanxana, motel, botel, flotel, otel-qəsrlər, sanatoriya, pansionat və s. aiddir.

Mehmanxanalar komfortun səviyyəsinə, yerlərin sayına, yerləşdiyi yerə, işləmə müddəti, qida ilə təmin etməsi və s. xüsusiyyətlərinə görə fərqlənirlər. Qeyd edilən fərqlilik xüsusiyyətləri nəzarət edən ölkələr qrupu (Fransa, Rusiya, İspaniya, Almaniya, İsveçrə) vardır. Turistlərdə gəldiyi məkanda müsbət təəssüratın formalaşmasına təsir göstərən əsas amil məhz komfortluqdur. Bu səbəbdən mehmanxanalar komfortluq təsnifatına əsasən qruplaşdırılır.

- Otaqlarda məişət rahatlılğı
- Qida müəssisələrinin mövcudluğu, vəziyyəti, iş rejimi
- İnformasiya təminatı və texniki təchizat
- Əlavə xidmətlərin göstərilmə imkanları

- Personalın vəziyyəti
- Ulduz kateqoriyası - komfortluq dərəcəsi artdıqca 1-dən 5-ə qədər ulduzların say artımı da çoxalır. Bu sistemə Avropa sistemi deyilir. Fransa, Avstriya, Rusiya, Macaristan, Çin, Misir və s. ölkələr ulduz kateqoriyasından istifadə edirlər. Ulduz sitemindən əlavə tac sitemi (Böyük Britaniya) və hərflər sistemi (A, B, C, D -Yunanistan) də mövcuddur. Hər cür tələblərəcavab verən mehmanxana 5 ulduzlu (*****) sayılır. Sonuncu kateqoriya ulduzsuz - L göstərilir vəbu da minimum tələblərə cavab verən mehmanxana kimi başa düşülür. ABŞ və Kanadada dövlət tərəfindən təsdiqlənmiş rəsmi təsnifatlaşdırma sistemi yoxdur. ABŞ-da ən yüksək kateqoriya AAA kateqoriyasıdır. Burada ulduzların əvəzinə səviyyədən istifadə edilir. 1-ci səviyyə inexpensive, 2-ci səviyyə moderate, 3-cü səviyyə expensive, 4-cü səviyyə deluxe, 5-ci səviyyə isə super deluxe adlanır.








Mehmanxanada nömrə fondu dedikdə otaqların sayı nəzərdə tutulur. Nömrə, mehmanxanalarda müəyyən sayda yataqdan ibarət olub, içərisində kateqoriyalara uyğun təchizatla tamamlanmış məkandır. Nömrələr yerlərin sayından asılı olaraq bir nəfərlik - SGL, iki nəfərlik – DBL, üç nəfərlik –TRP, dörd nəfərlik – QUART və s.bölünürlər. kiçik mehmanxanalarda adətən 30nömrə olmalıdır. ÜTT-nın tövsiyyələrinə görə kiçik mehmanxanalar 150 yer, orta mehmanxalarda 150-400, iri mehmanxalarda 400-dən yuxarı, meqaotellərdə isə 600 nömrədən yuxarı olmalıdır.

**Yerləşdirmə müəssisələrinin tiplərinin təsnifatı**

ÜTT-nın göstəriciləəinə əsasən, mehmanxanalar iki hissəyə bölünür: kollektiv və fərdi (individual).

# TƏLİM NƏTİCƏSİ 2

Kollektiv yerləşdirmələrə otel, motel, sanatoriya, pansionat, yataqxanavə s., individual yerləşmə müəssisələrinəisə otaqlar,villalar, ev, kottev və s. daxildir.




Motel - yol kənarında yerləşənmehmana kimi nəzərdə tutulur. Qısa müddətli istirahətə dayanan avtoturistlərə xidmət göstərən mehmanxana tipidir. Motellər lüks kateqoriyadan aşağı səviyyədə olur. Davamiyyətli və ya mövsümi olaraq fəaliyyət göstərir, müştərilərə tam texniki xidmətlər (qaraj, parking, benzin doldurma yeri və s.) təqdim edir.




Botel - qayıq otel adlanır, su üzərində olub, yüngül tərpənməsi ilə fərqlənir.

Flotel - “suda kurort” adlanan üzən otel mənasını verir. Su hövzəsinin mərkəzində,icarəyə götürülmüş gəmidə olan mehmanxanadır. Turistlərin ixtiyarına balıq tutmaq,sualtı ovçuluq üçün avadanlıq vələvazimat da verilir.




Rotel - təkərlər üzərində hərəkətdə olan, bir və iki yerli vaqondan ibarət mehmanxana tipidir. Hərəkət vasitəsi kimi treyler, qatar və s. ola bilər. Bu tip otellər əsasən Avropa ölkələrində istifadə edilir.



Butik otel - əsasən şəhər mərkəzlərində yerləşir və öz bahalıqvə xidmətinə görə digər otellərdən fərqlənir. Butiklərdə qqiymət baha olsa da, nömrələrin sayı 20-30 arasında dəyişir.



Otel-qəsrlər - Fransa, Almaniya, Böyük Britaniya, Çexiya, İtalya, İspaniya kimi ölkələrdə daha çox geniş yayılmışdır. Əksəriyyəti 4 ulduzdan aşağı səviyyədə olmayan otel-qəsrlərdə, adətən interyerdə tarixi orjinallıq qorunub saxlanılır.

Konqress otellər - bunlar həm də biznes oteli kimi tanınır. Bu otellər xüsusi iş adamları üçün nəzərdə tutulub və “all inclusive” xidmətinin göstərilməsi ilə seçilir.



Sanatoriya - latın dilində tərcüməsi “müalicə etmək”, “sağlamlaşdırma” mənasını verir. Sanatoriyalarda təbii-iqlim ehtiyatları, mineral sular müalicənin əsas amilləri hesab olunur. Sanatoriyaya müraciət edənlərin sağlamlığının bərpası üçün düzgün qidalanma, idman, fizioterapiya və s. xüsusi diqqət yetirilir.



Pansionat - sanatoriyadan fərqli olaraq, müalicə mərkəzi yox məhz yerləşmə müəssisəsidir. Bura əsasən sağlamlığında problem olmayan insanlar üçün nəzərdə tutulub. Onun əsas vəzifəsinə müştəriyə tam istirahətin və sağlamlığın möhkəmləndirilməsi üçün şəraitin yaradılması daxildir. Pansionatın sanatoriyadan digər fərqləndirici xüsusiyyətinə gündəlik məcburi rejimin olmamasıdır. istirahət edənlər gün rejimlərini özləri təyin edə bilər və əlavə xidmətlərə müraciət edə bilərlər.

### 2.3.1. TURİZMDƏ QİDALANMA MÜƏSSİSLƏRİ HAQQINDA ÜMUMİ MƏLUMAT VERİR

QİDALANMA MÜƏSSİSƏLƏRİNİN QISA SƏCİYYƏSİ

Kütləvi və ya ictimai iaşə müəssisələri turizm sənayesinin əsas tərkib hissələridir. Dünyada və ölkəmizdə fəaliyyət göstərən beynəlxalq dərəcəli otel şəbəkələri təklif edilən xidmətlərlə fərqliliklər nümayiş etməkdədirlər. Bu fərqlilik otelin keyfiyyəti və "ulduz" kateqoriyasından asılı olaraq dəyişməkdədir. Mehmanxalar yerləşdirmə xidməti ilə bərabər qidalanma xidmətini də təqdim edirlər.

Turizm məhsulunun tərkibində qidalanma vacib xidmət sayılmır, lakin insanın bioloji varlıq olduğunu nəzərə alsaq, onun olduğu hər yerdə bu fizioloji tələbatını ödənməlidir. Müştərini razı salmaqda qidalanma xidmətini əhəmiyyətli hesab edən əksər mehmanxanaların öz şəxsi qida müəssisələri olur. Lakin bəzilərində bu xidmətlər göstərilmir va ya yalnız səhər yeməyi ilə kifayətlənilir.

Qida müəssisələri xidmətin səviyyəsinə, mətbəxinə,təqdim edilən yeməklərin çeşidinə, iş rejiminə, yerlərin sayına,müştərilərə göstərilən xidmətin formasına görə bir-birindən fərqlənirlər. qidalanma müəssisələrinə əsasən aşağıdakı xidmət sahələri aiddir:

**Restoran** — (fransızca restaurer, bərpa etmək, yenilətmək deməkdir) sifariş əsasında hazır yemək və içki təqdim edən, yüksək xidmət səviyyəsinə malik qida müəssisəsidir. Burada müxtəlif çeşidli yeməklər, qəlyanaltı, qənnadı, içkilər, desert, meyvə və s. təqdim olunur. Restoranda menyuda nəzərdə tutulmuş milli və xüsusi yeməklərlə yanaşı, fərdi sifariş də təklif edilir. Restoranlar adətən iki qrupa-klassik və sürətli xidmət göstərən restoranlara bölünür.

Oturacaqların sayına görə restoranlar kiçik (10-15 yer) və böyük (500 və daha çox) olur. Restoranlar həm də arxitektur görünüşünə, həm də interyerinə görə fərqlənirlər. Restoranlar ilk dəfə olaraq 18 əsrdə Fransada yaranmışdır. 1765-ci ildə Parisdə yaradılmış ilk restoranda Bulanje (Boulanger) adında şorba verilirdi

Dünyada bir çox milli mətbəxlərə əsaslanan restoranlar mövcuddur. Onların arasında




İsveç, italyan, çin, hind, yapon, yunan, türk, fransız, alman, avstriya mətbəxləri daha məşhurdur. Adətən turistlər getdikləri ölkənin mətbəxi ilə tanış olmağa meylli olurlar.

**"A lya kart" (A la Carte)** – Bu növ menyuda göstərilmiş hər yeməyin qarşısında qiymət qeyd olunur. Bu menyudan adətən bahalı restoranlarda istifadə edilir. "A lya kart" xidmət sistemində müştərilər menyuda göstərilən yeməklərdən azad seçim etmə imkanına malik olurlar.

**"Tabldot" (Seçməsiz yemək)** – Fransızca «qonaq süfrəsi» mənasına gələn «Table d`hote» kəliməsinən götürülmüşdür. Menyuda olan bütün yeməklərə ümumi qiymət qoyulur. Bu qiymətə bir çox yemək çeşidi daxil edilir. Eyni zamanda müştərilərin uyğun seçimi üçün yemək yığımları bir neçə variantlarda və fərqli qiymətlərda təklif edilir. "Tabldot" xidmət sistemində bütün müştərilər üçün yemək seçimi etmək imkanı qoymayan vahid menyu təklif edilir.



Son zamanlar geniş yayılmış xidmət sistemlərindən biri "**isveç stolu**"dur. Bu xidmətin prinsipinə müştəri tərəfindən stol üzərində təqdim edilmiş fərqli yeməklər arasında dadından, qədərindən asılı olmayaraq müstəqil seçim edib özünə xidmət etməsidir.

**Kafeteriya** – müxtəlif içki növlərinin, xüsusilə də kofenin fərqli növlərinin təklif edildiyi müəssisədir. Kafeteriyalarda mütləq kofenin yanında likör, konyak kimi spirtli içkilər də təklif edilir. Bunun üçün çox vaxt "a lya kart" servis təqdim edilir. Menyuya soyuq və isti içkilərin yanında məhdudlaşdırılmış formada qənnadı və ya mətbəxdə hazırlanmış məmulatlar, isti yeməklər daxil edilə bilər. Burada xidmət ofisiant tərəfindən həyata keçirilir.



**Kafe (fransızca Café)** — ictimai yeməkxana və istirahət yeridir. Kiçik restorana oxşayan, ancaq məhsullarının çeşidi az olan bir müəssisədir. Bundan əlavə yemək çeşidinə görə dondurma kafesi, şirniyyat kafesi də olur. Qənnadı kafelərdə kofenin yanında geniş çeşiddə qənnadı məmulatları təklif edilir. Kafelər ayrı-ayrı binalarda, əsasən restoranlardan fərqli olaraq binalara yaxın tiklilərdə yerləşirlər. İqlimdən asılı olaraq dənizkənarı, çaykənarı kafelər fəaliyyət göstərir.

**Yeməkxana** – şəxsi istehsala görə məhsullardan hazırlanan və realizə edilən qidalanma

müəssisəsidir. Adətən birinci dərəcəli mehmanxanalarda, bəzən kurortlarda, təhsil ocaqlarında, müəssisələrdə bu tip qidalanma müəssisələri fəaliyyət göstərir.




**Pizzacı** – müxtəlif çeşiddə pizzaların təklif edildiyi müəssisədir. Burada mineral su, şirə və şərab da sifariş etmək olar.

**Bufet** müştərilərə tez xidmətin göstərilməsi üçün nəzərdə tutulur. Burada soyuq qəlyanaltılar, buterbrodlar, soyuq və isti içkilər, qənnadı məmulatları, bəzi asan hazırlana bilən isti yeməklər təklif edilir.

**Bar** müştərilərə əsasən alkoqollu içkilər (çox vaxt kokteyl şəklində) təqdim edilən, içində içki vermək üçün hündür stola və stullara malik guşə olan istirahət yeridir. Bar sözü ingilis mənşəli olub, baryer sözündən əmələ gəlmişdir. Burada içkilər saxlanılan şkaflar nəzərdə tutulur. Məqsəd Amerikanın məskunlaşmadırılması zamanı içkiləri qorumaq idi. Barların əksəriyyəti axşam və ya gecə açıqdır. Barlar ölçüsünə, təhcizatına görə bir-birindən fərqlənməklə pivə, şərab və kokteyl barlara ayrılırlar.




**Tez xidmət göstərən qida müəssisələri** tez hazırlana bilən yemək növü olub, xüsusi yeməkxanalarda verilir. Bu tip iaşə müəssisələri adətən az sayda yemək çeşidinə görə fərqlənirlər və əsasən bir yeməyin - pizza,toyuq, dəniz məhsulları, hamburgerlərin hazırlanması üzrə ixtisaslaşırlar. Sifariş etmə və hazırlama arasında çox vaxt cəmi 10 dəqiqə vaxt olur. Çoxlu miqdarda fast food restoranları mövcuddur. Onlardan "KFC", "McDonalds", "Burger King", pizza üzrə ixtisaslaşan «Dominos Pizza» "Pizza Hut" kimi "fast food"ları misal göstərmək olar.



Amerika Birləşmiş Ştatları «fast food» ların ən çox istifadə edildiyi ölkə hesab olunur. Ölkədə restoranlarda təqdim olunan qidaların 50 faizindən çoxunu hamburgerlər tutur. Bu səbəbdən «fast food» amerikalıların sevimli qidası hesab olunur. Ən böyük «fast food» restoranı isə «McDonalds» şəbəkəsidir.

### 2.4.1. NƏQLİYYAT XİDMƏTİNİN NÖVLƏRİNİ VƏ XÜSUSİYYƏTLƏRİNİ ƏLAQƏLƏNDİRİR

TURİZMDƏ NƏQLİYYAT XİDMƏTİNİN TƏŞKİLİ

Turizm böyük investisiyalar tələb edən iqtisadiyyat sahəsidir. Beynəlxalq kapital axınının əhəmiyyətli sahəsi turizm sənayesinə yönəldilir. Kapital axını həm də turistlərin şəxsi xərcləri



hesabına baş verir. Daimi yaşayış yerindən kənarda istirahət insanın ehtiyacı onun evdə olan ehtiyaclarından nəzərə çarpacaq dərəcədə fərqlənir. Nəqliyyat xidmətləri qonaqpərvərlik və ictimai iaşə turistin ehtiyaclarının ödənilməsindən ən başlıcasıdır.

Azərbaycanın əlverişli geosiyasi məkanda yerləşməsi,"İpək yolu"-nun ölkə ərazisindən mərkəzi mövqe tutması, Avropa- Qafqaz-Asiya nəqliyyat dəhlizinin birbaşa ölkə ərazisindən keçməsi, dəniz nəqliyyatı vasitəsi ilə İran, Rusiya və Orta Asiya Respubilkaları ilə iqtisqdi əlaqələrin Azərbaycanda kəsişməsi məhz beynəlxalq nəqliyyat sisteminə malik olmasına zəmin yaradıb.

Turizm nəqliyyat daşımaları sahəsində standart formalar mövcud deyildir, beləki, nəqliyyat təşkilatlan turoperatorlara turistlərin tur proqramı üzrə yerdəyişməsi şəraitini təklif edir.Nəqliyyat müstəqil sahə olmaqla, turistlərə göstərilən xidmətlər baxımından aparıcı mövqe tutur. Nəqliyyatın işində kifayət qədər pay sərnişin daşınmalarına məxsusdur ki, sərninişinlərin arasında nəzərə çarpacaq yeri turistlər tuturlar.

Hər bir nəqliyyat növü müxtəlif sürətli yerdəyişməni təmin edir. Sərnişin üçün ilk növbə də gedişə sərf etdiyi vaxt mühüm əhəmiyyət kəsb edir.

Sərnişinlərə təqdin olunan xidmətlərə aşağıdakiları aid etmək olar:

> məxsusi nəqliyyat xidmətləri;

> yolda sərnişinə təqdim olunan xidmətlər: vaqon-restoran, duş, kino (video, DVD), rəqs zalı və s.;

> vağzallarda yaradılan xidmətlər: saxlama kameraları, yükdaşıyanlar və s.

> vaxta qənaət və servisin yüksəldilməsinə kömək edən qulluqların sferasında xidmətlər: ticarət, mehmanxanalar, istirahət otaqları, ictimai iaşə, rabitə, bərbərxanalar və s.

**Nəqliyyat növlərinin təsnifatı**

Nəqliyyat xidməti - istənilən ölkənin iqtisadiyyatının maddi bazasının tərkib hissəsidir. ÜTT-nin turizm statistikasına dair verdiyi tövsiyələrə əsasən nəqliyyat növləri aşağıdakı qruplar üzrə təsnifatlaşdırılır.

√ Hava nəqliyyatı

√ Su nəqliyyatı

√ Quru nəqliyyatı



Hava nəqliyyatı sürət mexanizminə görə əlverişli, eyni zamanda ən bahalı nəqliyyat vasitəsidir. Hava nəqliyyatına dövlət təyyarələri və özəl aviaşirkətlərin çarter reysləri aiddir. Müasir dövrdə təyyarələrdə təqdim olunan xidmət turistlərin böyük əksəriyyətinin tələbatını ödəməyə qadirdir. Aviasiya şirkətləri beynəlxalq bronlaşdırma və rezervasiya şəbəkələrinə malik geniş nüfüza sahibdirlər. Sərnişin daşıma növünə görə uçuşlar mütəmadi və çarter reysləri vasitəsilə həyata keçirilir.



**Mütəmadi reyslər** - dünyanın bir çox aviaşirkətləri tərəfindən cədvəl əsasında həyata keçirir. Bu tip reyslərdə hətta bir sərnişin olduğu halda da uçuş edir. Belə reyslər salon kateqoriyasına görə 3 tipə bölünür: birinci, biznes və ekanom. Birinci sinif reyslərin biletləri baha, xidmətləri isə olduqca yüksək səviyyəlidir. Sərnişinlər üçün qeydiyyat zamanı ayrıca masa nəzərdə tutulur, oturacaqlar ən yüksək keyfiyyətli materiallardan hazırlanır. Hər bir oturacaq, onu istənilən zaman çarpayıya çevirə biləcək mexanizmlə təchiz olunur. Ayrıca olaraq, sərnişinlərə xüsusi menyu hazırlanır ki, onlar da menyudan istədiyini seçə bilər.

**Çarter reyslər** - mütəmadi reyslərdən fərqli olaraq, daimi olmurlar. Onlar müəyyən müddətə (2-6 ay) turizm şirkətləritərəfindən bronlaşdırılır. Çarter reyslər mütamadidən fərqli olaraq, göstərdiyi xidmət səviyyəsinə görə nisəbətən aşağıdır, lakin böyük üstünlüyü isə biletin mütamadi biletdən ucuz olmasıdır. Turizm şirkətləri çarter reysləri tək deyil,digər digər şirkətlərlə birgə havaya qaldırırlar.



**Su nəqliyyatına** dəniz və çay gəmiləri, paromlar, kruiz gəmiləri, yaxtalar və s. daxildir. Su nəqliyyatını dəniz və daxili nəqliyyat növlərinə bölürlər. Beynəlxalq turizmin dəniz gəmilərindən istifadə edən ən inkişaf etmiş sahəsi beynəlxalq kruizlərdir.

**Kruiz** - baza qiymətinin tərkibinə gəmi göyərtəsində kompleks xidmət: gəmidə gediş, kayutda yerləşmə (seçilmiş kayut sinfindən asılı olaraq), 3 dəfə qidalanma, əyləncə və adətən gəmidə təşkil olunan bir çox xüsusi tədbirlərdə (bayram, festival, konkurs, konsert və s.) iştirakı özündə birləşdirən dəniz və ya çay turudur. Dünyanın qabaqcıl kruiz ölkələri - Böyük Britaniya, ABŞ və Almaniyadır.

**Çay kruizi** - unikal turist marşrutu olub, özündə adətən çoxgünlük və tərkibinə: daşınma,

yerləşmə və qidalanma, əyləncə, yerüstü ekskursiyalar və digər turizm xidmətləri daxil olan xidmətlər paketini birləşdirən su marşrutudur.

**Quru nəqliyyatına** - dəmir yol nəqliyyatı, avtomobil və avtobus nəqliyyatı, qeyri-ənənəvi nəqliyyat vasitələri və s. daxildir. Turizmdə **dəmir yolunun** xüsusi rolu vardır, belə ki, ilk təşkil olunmuş turizm məhz dəmir yolu vasitəsilə həyata keçirilmişdir.İlk dəfə olaraq parovoz 1814-cü ildə C.Stefenson tərəfindən icad olunmuş və 1825-ci ildə dünyada ilk dəmir yolu çəkilmişdir (Stokton - Darlinqton).



Dəmir yollarından bir çox ölkələrdə, xüsusilə Avropa ölkələrində turizmdə geniş istifadə olunur. Avropada ən məşhur turizm qatarı Avropa ilə Asiyanı birləşdirən və Londondan İstanbula qədər hərəkət edən "Şərq ekspressi" ("Orient express"") hesab olunur.

Dəmir yol nəqliyyatı qısa (150 km.-ə qədər) və orta (800 km.- ə qədər) məsafələrdə həyata keçirilən səyahətlər zamanı böyük üstünlüklərə malikdir:

- √ İlin fəslindən, günün saatından və havadan asılı olmayan müntəzəmlik;
- √ Digər nəqliyyat vasitələri ilə müqayisədə ucuz qiymətlər;
- √ Yerdəyişmə zamanı yataq yerlərindən istifadə imkanı;
- √ Dəmir yol vağzallarının şəhər mərkəzlərində və onlara yaxın yerləşməsi.

**Avtomobil nəqliyyatı** - turizmdə daha geniş istifadə olunur, turistlərin "qapıdan qapıya" daşınmasını təmin edir. Avtomobil nəqliyyatının üstünlüklərinə, onun mobilliyi, nisbətən yüksək sürəti, nisbətən ucuzluğu daxildir. Turizmdə istifadə olunan avtomobil nəqliyyatı özündə 3 istiqaməti birləşdirir:



- avtobus səyahətlərinin təşkili;
- turistlərin şəxsi avtomobilində səyahətin təşkili;
- avtomobillərin kirayəsi;

İri şəhərlərarası və şəhər marşrutları şəbəkəsində birləşərək, avtobuslar, qatar və təyyarələrin birgə daşıdığından daha çox sərnişin, xidmət etdiyindən daha çox məntəqəyə xidmət edirlər. Avtobus turlarının əsas üstünlüyü, onların ucuzluğundadır: avtobus turu avia uçuşdan təxminən 1,5-2 dəfə ucuz başa gəlir və bu turların qiyməti mövsümdən asılı olaraq dəyişmir. Bir çox ölkələrdə şəhərlərarası və beynəlxalq avtobus daşımaları həm dövlət, həm də müstəqil təşkilatlara məxsus olan avtobuslar tərəfindən həyata keçirilir.

### 2.5.1. ƏYLƏNCƏ, EKSKURSİYALAR VƏ ONLARIN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİNİ İZAH EDİR

ƏYLƏNCƏ SƏNAYESİNİN VƏ ANİMASİYANIN TƏŞKİLİ



İnsanlar turizm ilə həyatlarında dəyişiklik, hərəkətlilik, cazibə, fərqlilik axtarmaqla, özlərin yeniləmək, çətinliklərini atmaq, stresslərdən uzaq olmaq arzusundadırlar.Animasiya, dilimizdə canlandırma mənasını daşımaqdadır.

"Animasiya" termini nəinki turizmdə istifadə edilir, həm də kompüterdə edilən cizgi filmi, Kukla teatrı və bənzər canlandırmalar animasiya olaraq adlandırılmaqdadır. Əyləncə və animasiya xidmətləri isə qonaqların xoş vaxt keçirmələrini təmin etmək və müəssisəyə olan tələbi artırmaq məqsədilə edilən bütün canlandırmaları əhatə edir.Bütün dünyada turizm sənayesinin inkişaf etməsi ilə, turizm müəssisələrinin rəqabətdə qalib gəlməsi üçün tur məhsullara cazibə, qeyri-adilik, fərqlilik və özəllik qatmaq məcburiyyətindədir. Əyləncə xidmətləri turizm sektorunun bir parçası olaraq bu rəqabət mühitində əhəmiyyətli vəzifələri boynuna götürməkdədir.

**Ekskursiya**



Ekskursiya xidməti həm müstəqil fəaliyyət sahəsidir, həm də kompleks turizm xidmətinin bir hissəsidir. Ekskursiya termini latınca "excursio"səfər sözündən əmələ gəlib. Ekskursiyalar dərketmə, maariflənmə, elmi xarakterli səfərlər əsasında yaranıb. Ekskursiya fəaliyyəti və ekskursiya təşkilatları turizm hərəkatının geniş inkişafına səbəb olmuşdur.Ekskursiya fəaliyyətinin inkişafının yüz illik tarixi vardır. O dövrün ziyalıları və qabaqçıl insanları dərketmə məqsədlərilə səyahət və ekskursiyalarda iştirak edirdilər.

Hər bir ekskursiya zamanı iştirakçılar yeni məlumatlar qazanırlar. Ekskursiyanın mövzusundan və marşrutundan asılı olaraq, tarix, coğrafiya, təbiət, istehsalat, cəmiyyət və s. haqqında yeni məlumatlar əldə olunur. Ekskursiyalar insanların dünyagörüşünün formalaşmasında, xüsusilə gənclərin təlim və tərbiyəsində böyük rol oynayaraq, pedaqoji prosesin tərkib hissəsinə çevrilir.



Hər bir pedaqoji prosesdə olduğu kimi, ekskursiyada da iki tərəf (öyrədən və öyrənən) var: ekskursiya bələdçisi və

ekskursiyaçılar. Ekskursiya zamanı ekskursiya bələdçisinin pedaqoji bacarığı önə çəkilir-mövzunu yaxşı bilməsi və lazımi səviyyədə çatdırması, ekskursiyaçılarla münasibətin qurulması, qrupu idarə etmək bacarığı, intuisiya, pedaqoji texnika və s.

Ekskursiya zamanı dünyanı dərk etmək, obyektlərə baxışdan, maraqlı tarixi və mədəni adidələrdən zövq almaq ekskursiyada estetik tərbiyəni formalaşdırır.

**Ekskursiyanın təşkil olunmasında zəruri olan mahiyyət:**

- Ekskursiyada obyektlərə baxış - mütləq qrup rəhbəri (bələdçi) tərəfindən aparılır.
- Ekskursiya rəhbəri və ekskursiya qrupu (Ekskuriya fərdi (1-7 nəfər) və kollektiv (7-30 nəfər)
- Ekskursiya 45 dəqiqədən - 1 sutkaya qədər ola bilər.
- Ekskursiyalar müxtəlif dil və mövzular üzrə aparılır.
- Ekskursiyanın mövzusu
- Ekskursiya marşrutu

Ekskursiyalar məzmununa təsnifatlaşdırılır:



- İncəsənət ekskursiyaları
- Memarlıq-şəhərsalma ekskursiyaları
- Tarixi ekskursiyalar
- İstehsalat ekskursiyaları
- Ədəbi ekskursiyalar
- Etnoqrafik ekskursiyalar
- Dini yerlərə ekskursiyalar
- Xüsusi təyinatıüzrə ekskursiyalar (muzeylər, parklar, teatrlar və s.)

## 2.6. TƏLƏBƏLƏR ÜÇÜN FƏALİYYƏTLƏR



- Turizm müəssisələrinin fəaliyyət dairəsinə görə təsnifatlaşdırın.
- Turizm fəaliyyəti ilə məşğul olmaq üçün lazımı sənədləri qeyd edin.
- Turoperatorun iş funsiyası haqqında məlumat toplayın.
- Dövlətin turizm sənayesinin inkişafı üçün atdığı addımları müzakirə edin.
- Yerləşdirmə müəssisəsinin terminini müzakirə edin.
- Yerləşmə müəssisələrinə aid olan obyektləri cədvəl şəklində qruplaşdırın.

- Dünya ölkələrinin "ulduz" kateqoriyası haqqında əlavə məlumatlar toplayın.
- Kollektiv və fərdi mehmanxaların oxşar və fərqli cəhətlərini geniş şəkildə müzakirə edin.
- Əyləncə sənayesi anlayışını araşdırın.
- Qida müəssisələrinin bir-birindən fərqləndirən amillərini müzakirə edin.
- Qida müəssisələrinə aid olan obyektləri qruplaşdırın.
- Mehmanxalarda qidalanma çeşidlərini barədə ətraflı məlumat toplayın.
- "İsveç stolu"anlayışını araşdırın.
- Gün ərzində müştəriyə təklif edilən yeməklərin çeşidinə görə mehmanxanaları qruplaşdırın.
- Azərbaycanın əlverişli coğrafi mövqedə yerləşməsinin nəqliyyat sahəsinə təsir amillərini müzakirə edin.
- ÜTT-nin turizm statistikasına dair verdiyi tövsiyələrə əsasən nəqliyyat növlərini təsnifatlaşdırın.
- Mütəmadi reys anlayışını araşdırın və göstərdiyi xidmətə görə qruplaşdırın.
- Dəmiryol nəqliyyatının yaranma tarixi və üstün keyfiyyətləri haqqında məlumat toplayın.
- Kruiz nəqliyyat anlayışını izah edin və kruiz nəqliyyatındanistifadə edən qabaqcıl ölkələri qruplaşdırın.
- Turizmdə əyləncələrin təşkil olunma səbəblərini müzakirə edin.
- Ekskursiyaların təşkili insan şəxsiyyətinin formalaşmasındamüsbət təsirlərini göstərin.
- Ekskursiyaların məzmuna görə təsnifatını qeyd edin.
- Animasiyanın turizmdə yeri və əhəmiyyəti haqqında məlumat toplayın.

## 2.7. QİYMƏTLƏNDİRMƏ

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Turizm sənayesinin xüsusiyyətlərini bilir və təşkili bacarır".**

- Turizm tədbirlərinin təşkilini, vasitəçilik və agent funksiyalarını həyata keçirən müəssisə hansıdır?
- Hansı yerləşdirmə müəssisələri mövcuddur?
- Hazır turizm məhsulu nədir və digər təsərrüfat sahələrində istehsal edilən məhsullardan nə ilə fərqlənir?
- Turagent kimdir?

**"Yerləşdirmə müəssisələrinin oxşar və fərqli xüsusiyyətlərini vurğulayır"**

- Mehmanxanalar  hansı ərazilərdə tikilir?
- Kollektiv mehmanxana tipinə aid olan obyetlər hansılardır?
- Sanatoriya ilə pansionatın oxşar və fərqli xüsusiyyətləri hansılardır?
- Flotel nədir?
- Hansı ulduz kateqoriyaları mövcuddur?

**"Turizmdə qidalanma müəssisləri haqqında ümumi məlumat verir"**

- Turistləri qida ilə təmin etmək üçün istifadə edilən hansı kütləvi  iaşə müəssisələri vardır?
- İaşə müəssisələri hansı təsnifatlara görə qruplaşdırılır?
- Tez xidmət göstərən qida müəssisələri hansı əlamətlərinə görə fərqlənirlər?
- "Tabldot"  anlayışı nədir?
- Restoranlar göstərdiyi xidmətə görə hansı növlərə bölünürlər?
- "Nəqliyyat xidmətinin növlərini və xüsusiyyətlərini əlaqələndirir"
- Nəqliyyat müəssisələrinin fəaliyyət göstərməsinin turizmə nə kimi təsiri vardır?
- Turizmdə hansı nəqliyyat vasitəsindən istifadə olunur?
- Hava nəqliyyatının digər nəqliyyatlardan üstün fərqli cəhətləri hansılardır?
- Kruiz nədir və onun hansı növləri mövcuddur?
- Mütamadi və çarter reyslərin oxşar və fərqli cəhətləri nələrdir?

**"Əyləncə, ekskursiyalar və onların təşkili xüsusiyyətlərini izah edir"**

- "Animasiya" anlayışı nədir?
- Ekskursiya nədir və hansı amillərə əsasən təsnifatlaşdırılır?
- Ekskursiyanın təşkil olunmasında zəruri olan mahiyyətlər hansılardır
- Məzmununa görə hansı ekskursiya növləri vardır?

### 3.1.1. AZƏRBAYCANIN TURİZM BÖLGƏLƏRİ VƏ MÖVCUD OLAN KURORT-REKRESİYA EHTİYATLARI BARƏDƏ DANIŞIR

AZƏRBAYCANDA ƏSAS TURİZM BÖLGƏLƏRİ




Azərbaycan Ön Asiyada Qafqazın cənib-şərq və cənubunda, İran yaylasının şimal qərbində yerləşən ilk insan məskənlərinin məkanı olduğu bölgədir.

Respublikamızın Qafqaz sıra dağları, Talış dağları, Xəzər dənizi ilə əhatə olunması turizmin inkişafında böyük rolu olmuşdur. Azərbaycanın mülayim və subtropik iqlim qurşağında yerləşməsi, təbii və mədəni-tarixi ehtiyatların olması yüksək səviyyədə turistlərin tələbatını ödəməsinə imkan yaradır. Hər hansı bir ölkə rekreasiya resurslarına malik olarsa turizm rayonaları birləşərək turizm zonalarını əmələ gətirirlər. Bu səbəbdən Azərbaycan ərəzisində turizm sərvətlərinin müxtəlifliyi ilə fərqlənən 10 turizm bölgəsinə ayrılır.



**Bakı – Abşeron turizm bölgəsi** – respublikamızın şərqində, Xəzər dənizinin sahilində yerləşməklə stün əlverişli coğrafi mövqeyə malikdir. Bölgənin əlverişli coğrafi mövqeyə, yüksək səviyyəli xidmət sahələrinə, müxtəlif əyləncə məkanlarına malik olması, əsas turizm marşrutlarının Bakıdan başlaması və s. üstünlüyü turizmin inkişafı üçün əsas amillərdir. Tərkibinə Bakı, Sumqayıt, Xırdalan şəhərləri, Abşeron və Xızı inzibati rayonları daxildir. Bu bölgə Azərbaycan əhalisinin həddən ziyadə sıx yaşadığı və plansız böyümənin müşahidə olunduğu və paytaxtın yerləşdiyi bir ərazidir. Xüsusilə çoxlu sayda tarix və mədəniyyət obyektlərinin olduğu zonada dünya mədəni irs siyahısına daxil olan yerlər vardır.



Bakı yaxınlığında Xəzər dənizində çoxlu sayda ada var. Buna Çilov, Pirallahı, Xərə-Zirə, Zənbil, Gil, Qum, Daş Zirə və s., adlarını çəkmək olar. İl ərzində Bakıda yüzlərlə müxtəlif tədbirlərin keçirilməsi ölkəyə çoxlu sayda turistin gəlməsinə səbəb olmuşdur.

Q**uba-Xaçmaz turizm bölgəsi** - respublikamızın şimal-şərqində yerləşir. Tərkibinə Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən inzibati rayonları daxildir. Region fiziki-coğrafi cəhətdən geniş dəniz zolağı, Qafqaz dağları əhatəsində olması və geniş meşə massivləri ilə fərqlənir. Böyük



Qafqaz dağlarının ən yüksək zirvələri –Bazardüzü, Şahdağ, Tufandağ bu zonada yerləşir. Təngalıtı dərəsi, Afurca şəlaləsi, Qəçrəş, Yalama-Nabran, Xınalıq kəndi, Şahdağ yay-qış turizm kompleksi əsas turizm məkanları hesab olunur. Bölgədə Altıağac və Şahdağ milli parklarında ekoturizmin inkişaf etdirilməsi, kənd yaşıl turizminin genişləndirilməsi mümkündür. Nabran isə bölgənin əsas çimərlik turizm mərkəzidir. Baxmayaraq ki, çoxlu tarix və mədəniyyət obyektləri vardır. Qədim Şabran şəhərinin qalıqları, Gilgilçay müdafiə istehkamı, Xızının rəngarəng dağ mənzərələri, Qubadakı Xınalıq kəndi və s., yadda qalar turizm məhsullarıdır.

Bu bölgənin turizm inkişaf konsepsiyasında "More-Qore" (Dəniz və dağ) fikiri əsas yerdə durmalıdır.

Turistlərin dağlarda sərin havalarda gəzib və ya xizək sürüb qısa müddət sonra dəniz sahilinə enməsi, günəşlənməsi üçün imkan vardır. Bölgənin regionlar arası inteqrasiyası üçün Şamaxı-Quba yolunun çəkilməsi zəruridir. Xızıdakı "Cənnət bağı" istirahət zonası kimi qonaqlama yerlərinin sayının artırılması və rəqabət mühitində qiymət və keyfiyyətin nəzarətdə saxlanılası mümkündür. Siyəzən rayonu ərazisində yerləşən Qalaaltı kurort şəhərciyində Çıraqqala sanatoriyasının genişləndirilməsi ilə sağlamlıq turizminə geniş imkan yaratmaq olar.

Qeyri-neft sektorunda dövlətin ən iri həcmli layihələrindən biri Qusarda tikilən Şahdağ kompleksi də bu regiondadır. Kompleksinin yaradılması Şimal turizm zonasının potensialına mühüm töhfədir.





**Şəki-Zaqatala turizm bölgəsi** - Böyük Qafqaz dağlarının cənub yamacında yerləşir. Tərkibinə Şəki, Qax, Oğuz, Zaqatala və Balakən daxildir. Dağlıq və dağətəyi landşaft, mineral bulaqlar, dağ gölləri, şəlalələr, zəngin tarixi-memarlıq abidələri (Şəkixan sarayı, Gələrsən – Görərsən qalası, Sumuq

qala, Kiş məbədi, Pəri qalası və s. əsas tuirst axınına səbəb olacaq ərazilərdir. Təbiətinin və istirahət mərkəzlərinin çoxluğu bölgənin turizmin yüksək inkişafına təsir göstərir.





**Gəncə-Qazax turizm bölgəsi** - Azərbaycanın qərbində yerləşir. Tərkibinə Gəncə, Qazax, Tovuz, Gədəbəy, Şəmkir, Daşkəsən, Ağstafa, Göygöl, Goranboy, Naftalan daxildir. Bölgə Kiçik Qafqaz dağlarının qoynunda yerləşir. Maili düzənliyi, yüksək dağlıq əraziləri, təbii bulaqlar , təbii göllər (Göygöl, Maralgöl) ilə fərqlənir. Həmçinin bu bölgə "şairlər diyarı, Naftalan şəhəri isə respublikamızın müalicə-sağlamlıq mərkəzi ilə fərqlənir. Ərazidə çox zəngin tarix, mədəniyyət və təbiət abidələri vardır. Buraya özünəməxsusluq qazandıran həm də, Alban məbədləri və Almanların (Şvablar) töhfələridir. Heç təsadüfü deyil ki, Azərbaycanda Simens qardaşları, alman məskənləri və şərab yolları kimi özünəməxsus marşrutlar bölgədən keçir.




**Qarabağ turizm bölgəsi** - Qarabağ turizm bölgəsi Bərdə, Ağdam, Şuşa və Kəlbəcər rayonlarını əhatə edir. Azərbaycanın ürəyi sayılan qədim Qarabağ diyarı bu ölkəyə mühüm tarixi və mədəni töhfələr vermişdir. Qarabağ deyəndə təkcə unikal təbiətə malik olan bir bölgə, ölkənin təbii abidələri siyahısına daxil edilmiş landşaftlar deyil, həm də istedadlı şairlər, yazıçılar, musiqiçilər, xanəndələr (milli musiqinin bir istiqaməti olan muğam ifaçıları) nəzərdə tutulur. Qarabağ - Azərbaycan musiqisinin beşiyidir.

 

Qarabağ gözəl təbiəti ilə zəngin flora və faunaya sahibdir. Həmçinin yüzlərlə dəyərli tarix, mədəniyyət və təbiət abidələri də bu bölgədədir. Bölgəyə aid olan Kəlbəcər rayonunda mineral, o cümlədən termal suları ilə məşhurdur. Ən məşhur mineral su olan İstisu bulağı ətrafında salınmış kurort da İstisu adlanır.Bu mineral suların kimyəvi tərkibi dünya şöhrətli Karlovi Vari (Çexiya) suyunun tərkibi ilə demək olar ki, eynidir, bəzi göstəricilərə görə hətta ondan da üstündür.

Qeyd etmək lazımdır ki, Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ və ətraf rayonların təbii landşaftı, tarixi-memarlıq abidələri, tranzit-kommunikasiya şəbəkəsi ermənilər tərəfindən dağıdılmış, bir sözlə bölgənin turizm infrastrukturu tamamilə məhv edilmişdir. O səbəbdən də bölgədə turizmin inkişafı haqqında işğaldan azad edildikdən sonra tanış olmaq mümkündür.

**Lənkəran turizm bölgəsinə** cənub marşrutuna adi olan Salyan, Biləsuvar, Cəlilabad, Masallı, Lənkəran, Lerik və Astara rayonları aiddir. Bu bölgə şimal-cənub nəqliyyat dəhlizi üzərində, İranla sərhədədək, Xəzər dənizi boyunca uzanan bir bölgədir. Bölgədə hələ sovet dövründən Lənkəran və Astara rayonlarında istirahət və sağlamlıq turizmi inkişaf edib. Xüsusilə Lənkərandakı İstisu sanatoriyası müalicəvi əhəmiyyəti ilə çoxlarının diqqət mərkəzində olub. Bu zonada Şirvan və Hirkan milli parkları, Qızılağac qoruğu (Burada yaşayan 248 növ quş və 54 növ balıq arasında Qırmızı kitaba daxil edilmiş növlər də var. ) diqqət çəkməkdədir.

 

Bölgədə çoxlu sayda tarix, mədəniyyət və təbiət abidələri çoxdur. Həmçinin bu zonadan ölkənin ən böyük çayı –Kür keçib, Xəzər dənizinə tökülür. Həmçinin ərazidə ənənəvi xalq sənəti növləri -

zərgərlik, xalçaçılıq, həsir toxuma sənətləri geniş inkişaf etmişdir ki, bu da turizm üçün maraqlıdır. Ərazidə çoxlu sayda yerləşdirmə yerləri və restoranlar vardır. Turistlər həm də kotej tipli evlərdə və fərdi evlərdə qalmağa da üstünlük verirlər.



**Dağlıq Şirvan turizm bölgəsi** - respublikamızın əsas mərkəzi hissəsini əhatə edir. Ərazisinə Ağsu, Qobustan, Şamaxı və İsmayıllı rayonları daxildir. Dağlıq Şirvanın əlverişli iqtisadi-coğrafi mövqeyi onun nəqliyyatına da müsbət təsir göstərir. Rayonun əsasən respublikanın mərkəzi hissəsində yerləşməsi onun erazisinin tranzit əhəmiyyətini artırır, oradan müxtəlif istiqamətli magistral avtomobil yollarının keçməsinə şərait yaradır və onun başqa regionlarla nəqliyyat əlaqələrini daha sərfəli edir. Bakıdan respublikanın qərbinə gedən magistral avtomobil yolu Dağlıq Şirvan bölgəsinin ərazisindən keçir.

Bölgənin Böyük Qafqaz dağlarının cənub-şərq yamaclarında yerləşməsi, təbiətinin füsunkarlığı turizmin inkişafı üçün əlverişlidir. Bölgənin gözəl mənzərəyə, sərin iqlimə, keyfiyyətli şirin və mineral sulara, dağ meşələrinə və s. malik olan bir çox əraziləri onun şəhərlərinin, həmçinin Bakı əhalisinin sevimli istirahət yeridir. İstirahət məqsədi ilə əhalinin Dağlıq Şirvan turizm bölgəsinə axını xüsusilə yay mövsümündə artır ki, bu da rayonun sosial-iqtisadi inkişafına müsbət təsir göstərir.



Şamaxıdan 12 km şimal-şəıqdə, dəniz səviyyəsindən 1400 m vüksəkdə Pirqulu qəsəbəsində yerləşir. Rəsədxananın güzgülü teleskopu öz böyüklüyünə görə (diametri - 2 m) Avropada ikincidir. Teleskop alman mühəndisləri və konstruktorları tərəfindən hazırlanmışdır. Qış mövsümündə Pirqulu ərazisində dağ zirvələri və bütün yayla qarla örtüldüyündən burada dağ xizək idmanı ilə məşğul olmaq olar. Rayonun görməli yerlərinə ekskursiyalar, yay və qış mövsümlərində istirahət etmək müvafiq turist təşkilatları tərəfindən təşkil olunur.

Rayon ərazisində qədim abidələr çoxdur: Talıstan kəndi yaxınlığında Cavanşir qalası (VII əsr); Xanağalı kəndində Qız qalası (XI-XII əsrlər); Basqal kəndində hamam və məscid (XVII əsr); Lahıc qəsəbəsi yaxınlığında Girdman qalası (XVIII əsr); Sulut kəndində Fitdağ qalası (XVIII əsr) diqqəti daha çox cəlb edir.



**Naxçıvan turizm bölgəsi**- Naxçıvan turzim bölgəsi Azərbaycanın cənub-qərbində, Araz çayının şimalında Naxçıvan Muxtar Respublikasında (NMR) yerləşir. O Azərbaycan Respublikasının əsas ərazisindən başqa bir dövlətin ensiz zolağı ilə ayrı salınıbdır. NMR Dərələyəz dağlarının cənub ətəklərində və Zəngəzur dağlarının günbatar səmtində qərar tutur. NMR mərmər, daş duz, əhəng, gips yataqları, Sirab, Badamlı, Vayxır, Nəhəcir, Qızılcır kimi nadir mineral sularla zəngindir. İran və Türkiyə ilə sərhədi boyunca Araz çayı axır, bundan başqa diyarda 40-a yaxın kiçik və orta uzunluqda çay axır (Ordubadçay, Əlincəçay, Gilançay, Naxçıvançay, Arpaçay və b.). Burada "üzən adaları" olan dünya gözəli Batabat gölü ilə yanaşı, Babək və Culfa rayonlarının torpaqlarını suvarmaq üçün süni göllər də var - onlar dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşir. Bütün bölgədə qədim şəhərlərin çoxlu sayda xarabalıqları, bürclər, qalalar, məqbərələr qalmışdır. Naxçıvan Azərbaycanın və Şərqin ən qədim və iri şəhərlərindən olmuşdur. Bölgənin tarixi minilliklərin dərinlərinə gedib çıxır: arxeoloqlar burada eramızdan öncə II və I minilliklərə aid çoxlu maddi mədəniyyət əşyaları tapmışlar.

NMR-də Xalça Muzeyi, Ədəbiyyat Muzeyi, Tarix Muzeyi var. Burada eləcə də yazıçı-dramaturq Hüseyn Cavidin ev-muzeyi və məqbərəsi yerləşir. Həmçinin xeyli tarixi abidələr - memarlıq kompleksi İmamzadə, Cümə Məscidi, Zaviyə Məscidi, "Pirgəmiş", "Xan Evi", İsmayil Xan hamamı, Yusif ibn Küseyir məqbərəsi, Möminə-Xatın məqbərəsi və s. mühafizə olunur.

Ermənistanın apardığı işğal siyasəti nəticəsində blokada şəraitində yaşayan bu turizm zonası zəngin flora və fauna ilə yanaşı qeyd etdiyimiz kimi, nadir tarix, mədəniyyət və təbiət abidələri ilə diqqətə layiqdir. Bölgəyə hər il İran və Türkiyədən çoxlu sayda biznes turizm nümayəndələri gəlir. Son on ildə bölgədə yerləşdirmə sahəsində irəliləyiş əldə edilmişdir. Amma digər bölgələrdəki keyfiyyətli xidmət çatışmazlığı vardır. Ən böyük problem isə blokada olması ölkənin digər bölgələri ilə yalnız hava əlaqəsinin olmasıdır.

**Azərbaycanın mövcud kurort-turizm zonaları**

Rekreasiyanın təbii amili kimi ilk növbədə təbii-ərazi kompleksləri, onların komponentləri və ayrı-ayrı xüsusiyyətləri çıxış edir.Bunlara landşaft müxtəlifliyi və iqlim ekzotikliyi onların yaratmış olduğu təbii təbiət qoruqları, yasaqları və insan əməyi nəticəsində yaradılmış möhtəşəm milli parklar,

coğrafi xüsusiyyətlər, ekzotiklik və ya əksinə, səciyyəvilik, təbii obyektlərin forma və ölçüsü, onların vizual coğrafi mövqeyi, maneələrin aradan qaldırılması, təbii amillərin qiymətləndirilməsindən ibarətdir.

Respublika ərazisinin xeyli hissəsini böyük düzənliklər təşkil etsə də, o dağlıq ölkələrə aid edilir. Azərbaycanda yerləşən Böyük və Kiçik Qafqaz silsilələri və Talış dağları onun ərazisinin 2/3 hissəsini tutur. Ərazinin hipsometrik amplitudası yüksək olmaqla, Xəzər dənizi sahilində - 26 m-lə ən alçaq , dəniz səviyyəsindən 4466 m  qədər ucalan Bazardüzü zirvəsi isə respublikamızın ən yüksək zirvəsi hesab olunur.

Azərbaycanın ən böyük oroqrafık vahidləri Böyük və Kiçik Qafqaz dağları, Naxçıvan MR və onların arasında yerləşən Kür çökəkliyidir.

Bu gün insanların rekreasiyaya və turizmə tələbatı rekreasiya fəaliyyətinin müəyyən növləri vasitəsilə reallaşdırılır. Rekreasiya fəaliyyəti - asudə vaxtda insanların psixoloji, fiziki və mənəvi qüvvəsinin bərpası və inkişafına yönəldilən fəaliyyətidir.

Kurort-turizm rekreasiya ehtiyatları birmənalı olaraq əhalinin istirahəti, müalicəsi və həyat səviyyəsinin artması üçün istifadə edilir. Bu ehtiyatlar təbii və antropogen mənşəli olur. Təbii rekreasiya ehtiyatlarına istirahət, müalicə turizm üçün istifadə edilən təbiət hadisələri və obyektləri daxildir.Sahil zonaları, göllər, dağlar və mineral sular təbii rekreasiya ehtiyatlarıdır. Qoruqlar, Milli Parklar və yasaqlar, müalicə əhəmiyyətli palçıqlar, hərtərəfli həmişə yaşıl yaşıllıqlar da təbii rekreasiya və Turizm ərazilərinə aiddir. Onlar istifadə xarakterinə görə fərqlənir.

Respublikada ən mühüm təbii-rekıeasiya ehtiyatları Xəzər dənizinin sahillərində yerləşir. Yay aylarının bol Günəş enerjisi, qızmar sarı dənəcikli qumlar, Abşeron, Quba-Xaçmaz, Lənkəran-Astara zonalarında olan (825 km qədər) sahil boyu mineral və termal mineral bulaqlar buranın müalicə üçün istifadə imkanlarım genişləndirir. Abşeron yarımadasının şimal və cənub sahillərində olan Pirşağı, Bilgəh, Buzovna, Mərdəkan, Şüvəlan Şıx mühüm istirahət yerləridir.Bu ərazilərdə sanatoriyaların, istirahət evlərinin, turist bazalarını və kurortların geniş şəbəkəsi yaradılmalıdır.
Göygöl və onun ətrafında olan digər göllər sistemi, Batabat, Hacıqabul, Böyükşor, Masazır göllərinin ətrafı, onların suları və yaratdığı mikroiqlim şəraiti mühüm təbii-rekreasiya ehtiyatlarıdır. Bu ehtiyatlardan geniş istifadə edilir.

Şəki-Zaqatala, Gəncə- Qazax, Quba-Xaçmaz, Lənkəran- Astara, Yuxarı Qarabağ, iqtisadi rayonlarında olan dağlar, bu ərazilərdə olan meşələr, təbii-iqlim şəraiti, Milli parklar və yaşıllıqlar əhalinin istirahət zonalarının təşkil edilməsi üçün istifadə edilə bilər.

Respublikada mövcud olan bu mineral bulaqların müalicə imkanları çox böyükdür və onların bəzilərinin əsasında iri-kurort sanatoriya kompleksləri yaratmaq olar. Naxçıvanda olan mineral

bulaqlardan geniş istifadə olunur.Digər su mənbələri yerli əhəmiyyət kəsb edir.
Abşeronda yerləşən Böyükşor, Masazır, Binəqədi göllərinin palçıqları müalicəvi əhəmiyyətə malikdir. Onların bu imkanlarından istifadə edilməlidir.



Abşeron kurort-turizm və rekreasiya zonasının Bakı bölgəsində Şirvanşahlar sarayı. Qız qalası, Qala divarları, Şəki-Zaqatala zonasında Xan sarayı, Zaqatala və Qaxda Məscidlər, Türbə və alban kilsələri, Gəncə bölgəsində çox saylı memarlıq Gəncə qapısı, İmamzadələr məscidi və s. inciləri, Şamaxıda, Naxçıvanda, Ordubadda, Qubada, Lənkəranda və s. şəhərlərdə müxtəlif tarixi dövrlərdə tikilmiş tarixi memarlıq abidələri. Şərq hamamxanaları turistlərin gəzib görməsi vacib sayılan arxitektura obyektlərinə misal ola bilər.

Dövlət turizmin inkişaf etməsi üçün müəyyən tədbirlər həyata keçirir. Qəbul edilmiş dövlər proqramlarının əsas məqsədi ölkədə kurortların, istirahət-müalicə ocaqları dövlətin qarşısında duran vəzifələri müəyyən etmək, mövcud olan təbii-müalicə ehtiyatlarından bu məqsədlə istifadə edilməsi yollarını müəyyən etmək, kurort-sanatoriya təsərrüfatının fəaliyyəti üçün müasir tələblərə cavab verən infrastruktur obyektlərinin təşkilini təmin etməkdir. Burada təbii müalicə mənbələrinin təsnifatı verilir və s. bu təsnifatlara ən əsas balneoloji iqlim, palçıq, Naftalan nefti və s.. Balneoloji kurortlara təbii mineral sulardan istifadə olunan kurortlar aiddir.

### 3.2.1.BEYNƏLXALQ TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİNİ QEYD EDİR

BEYNƏLXALQ TURİZM ANLAYIŞI



Turizm hərəkatının coşğun inkişafı zəmanəmizin xarakterik xüsusiyyətlərindən biridir. Beynəlxalq turizm elə sürətlə irəliləyir ki, onun inkişaf təmayülləri xüsusi araşdırmalar tələb edir. Beynəlxalq turizmin inkişafı, elm və təcrübənin qarşısında turizm sahəsinin planlı surətdə tənzimlənməsi, idarə edilməsi və ərazi bölgüsü üzrə təşkili sahəsindəbir sıra vəzifələr qoymuşdur.

Son illərdə turizmin təşkili işi qloballaşaraq sırf beynəlxalq fəaliyyət dairəsinə daxil olmuşdur. Bu səbəbdən də turizmin təşkili işi dünya əhalisinin bir-birinə yaxınlaşmasına təminat yaradan bir sahə olmaqla yanaşı, o həm də milyonlarla insanların sosial və iqtisadi problemlərinin

ödənilməsinə yardımçı olan böyük fəaliyyət sahəsinə çevrilmişdir. Eyni zamanda turizmin inkişaf etdirilməsi nəticəsində yeni iş yerləri yaranmışdır.

İnsanlar indiyə qədər bəşəriyyətin diqqətini özünə cəlb edən müqəddəs yerləri də görməyə can atır, həmin yerlərdə möhtəşəm tarixi abidələri görmək istəyirlər. Məsələn, hələ e. ə. III minillikdə dünyanın mədəniyyət mərkəzlərindən biri olan Misirin tarixi yerləri ilə tanış olmaq bu gün hər kəs üçün çox maraqlıdır. Dünyanın yeddi möcüzəsindən biri hesab olunan qədim Misir ehramları, həmin ehramların birinin qarşısında ucaldılmış «Sfinks» heykəli bir çox tarixi hadisələrin, elmi biliklərin açarıdır.Misirdə e. ə. III minillikdə bürokrat monarxiya quruluşuna rəhbərlik edən bütün fironların tarixi xatirələri bu abidələrdə cəmlənmişdir. Ehramları görməyə gələnlər fironlara həsr olunmuş maraqlı miflərlə üzləşir, onların qəbirlərindən aşkar olunmuş qiymətli əşyalara baxırlar. Eyni zamanda hələ də müasir elm tərəfindən hazırlanma texnologiyası tam məlum olmayan mumiyalar haqqında maraqlı məlumatlar eşidirlər.

**Beynəlxalq turizm** bir sıra konkret funksiyaları yerinə yetirir. Onlar əsasən aşağıdakı funksiyalardan ibarətdir:

1. Beynəlxalq turizm ölkəyə xarici valyuta qazandırmaq funksiyasını yerinə yetirir.
2. Turizmin xidmət şəbəkələrinin genişləndirilməsinə təkan verir. Bunun da nəticəsində yerli əhali üçün yeni iş yerlərinin yaradılmasına səbəb olur.
3. Ölkədə məşğulluğun sahələrini və istiqamətlərini genişləndirir.

Turizmin əsas funksiyalarına nəzər yetirərkən görürük ki, bu sosial-mədəni sahədən hər bir ölkə faydalanır. Turizmdən faydalanma əmsalı isə çox böyükdür. Birinci növbədə turizmə qoyulan sərmayələr hesabına və ondan əldə olunan gəlirlə yeni müəssisələr yaradılır. Yeni müəssisələrin yaradılması isə bütün dünyanın əsas və bir nömrəli problemi olan işsizliyin azalmasına yardımçı olur. Digər tərəfdən ölkənin büdcəsinə turizmdən əlavə gəlir daxil olur və bunun da hesabına dövlət büdcəsindən maliyyələşən təşkilatların əmək haqları artır, təqaüdlər və s. çoxalır.

Beynəlxalq turizmin bütün göstəriciləri dayanmadan artır və dünya ümumdaxili məhsulunun artım templərinə uyğun ümumi şəkildə irəliləyir. Lakin səyahətlərin dinamikası milli iqtisadiyyatların konyukturasına və ümumdünya iqtisadiyyatına qarşı çox həssasdır.

Beynəlxalq turizm nəinki illər üzrə, hətta dünya regionları üzrə eyni səviyyədə inkişaf etmir. 1990-cı illərin sonlarında gələnlərin maksimal sayı Avropa ölkələrinə düşürdü – təxminən 59%. Asiya və Sakit okeanı regionuna dünya turistlərinin 14%-i düşürdü. Yaxın və Orta Şərqə (Misir, İsrail, Birləşmiş Ərəb Əmirlikləri və s.), Cənub-Şərqi Asiyaya (Tailand, Sinqapur, İndoneziya və s.) və digər ölkələrə turistlərin axını günü-gündən artır. Xarici qonaqların qəbulu üzrə ilk 10 ölkəyə aiddir:

Fransa, İspaniya, ABŞ, İtaliya, Çin, Böyük Britaniya, Meksika, Kanada, Polşa, Avstriya. Beynəlxalq turizm üzrə gəlirlərin böyük həcminə görə ilk 10 ölkə ABŞ, İspaniya, İtaliya, Fransa, Böyük Britaniya, Meksika, Kanada, Çin, Avstriya, Almaniyadır. Turist balansının ən çox müsbət saldosuna İspaniya, İtaliya, Fransa, Meksika, Türkiyə malik olduğu halda, ən çox mənfi saldoya Almaniya, Yaponiya, Böyük Britaniya və Şimali Avropanın ölkələri malikdirlər.

### 3.3.1. AVROPA VƏ ASİYA ÖLKƏLƏRİNİN ƏSAS TURİZM ZONALARINI ƏLAQƏNDİRİR

AVROPA ÖLKƏRİNDƏ BEYNƏLXALQ TURİZM




Avropa dünyanın inkişaf etmiş əsas turizm regionudur. Əlverişli təbii-iqlim şəraitinə malik olan və turistlərin diqqətini cəlb edən müxtəlif görkəmli yerlərinbol olduğu,turizmi daha çox inkişaf etmiş ölkələr Avropa qitəsində yerləşir. Mütəxəsislərin hesablamalarına əsasən beynəlxalq turizmin ümumi həcminin 60 faizi Avropa ölkələrininpayına düşür.

İqlim baxımından Avropanın əksər hissəsi mülayim qurşaqda yerləşir. Qitənin ucqar subarktika və arktika, cənubi isə subtropik zonaya düşür. Avropa cənubda, qərbdə və şimal –qərbdə Atlantik, şimalda Şimal Buzlu okenın dəniz suları ilə əhatə olunmuşdur. Avropa ölkələririnin iqliminə ilk növbədə onun coğrafi mövqeyi, daha sonra isə Atlantik okeandan Avropaya daxil olan isti və rütübətli dəniz havası gətirən Holfstrim cəryanını misal çəkmək olar.

Avropa bütün tarixi boyu dünya siyasətinə böyük təsir göstərmişdir. Qədim yunanlar 450 il əvvəl demokratik cəmiyyət yaratmışdılar. Hökümətin xalq tərəfindən seçilməsi, sistemi bizim dövrümüzə də geniş yayılmışdır. XVIII əsrdə avropalılar müstəmləkəçilərə çevrildilər İri dəniz dövltələri olan İspaniya, Hollandaiya, İngiltərə və Fransa dünyanın böyük hissəsinə ağalıq edirdilər. bu ölkılər Asiya,Afrika, Amerika, Avstraliyanı istismar edərək sürətlə böyüyürdülər.

Beynəlxalq turizm Avropanın bütün inkişaf etmişölkələrini əhatə etsə də,heç də hamısında eyni səviyyədə inkişaf etməyib. Ayrı-ayrı dövlətlərin beynəlxalq turizmdə iştirakı xarekteri də əsaslı surətdə fərqlənir və bu iştiraka görə həmin ölkələr 4 qrupa bölünürlər:

Əhalisi sıx, urbanizasiya və həyat səviyyəsi yüksək olan ölkələr **birinci qrupa** aid edilir. Böyük Britaniya, Fransa, Almaniya, Benilüks ölkələr (Belçika, Niderland, Lüksenburq), Skandinaviya ölkələri (Norveç, İsveç, Finlandiya) bu qrupa aiddirlər.

**İkinci qrup ölkələr**, dünya üzrə xarici turistlərin dörddə bir hissəsindən çoxunu özünə cəlb

edən dövlətlərdir. Bunlar saysız-hesabsız buxtalara, adalara, dağ və dağətəyi-göl landşaftlarına malik olan, subtropik Aralıq dənizi iqlimi qurşağında yerləşən dövlətlərdir. İspaniya, İtaliya, Portuqaliya, Yunanistan, Malta və s.

**Üçüncü qrup ölkələrə** Alp dağlarının əzəmətli massivləri, saysız-hesabsız memarlıq abidələriilə beynəlxalq turizmə töhvə verən İsveçrə və Avstriyanı göstərmək olar.

Çexiya, Slovakiya, Bolqaristan, Macaristan, Ruminiya, Polşa, Yuqoslaviya **dördüncü qrupa** aid edilir. Bu ölkələr bəynəlxalq turizmdə fəal göstəricilər əldə edilər.

44 müstəqil dövlətin yerləşdiyi qitəsi Avropa coğrafi inzibati ərazisinə görə 5 subregiona bölünür. Qərbi Avropa, Mərkəzi Avropa, Şimali Avropa, ŞərqiAvropa və Cənubi Avropa.



**Qərbi və Mərkəzi Avropa**: Qərbi Avropa iqtisadi və siyasi cəhətdən bir-biri ilə sıx qarşılıqlı əlaqədə olan 24 müstəqil dövlət və həmçinin Cəbəllüttariq yerləşir. Bu ölkələrdən dördü G8 qrupuna daxil olan başlıca İnkişaf Etmiş Ölkələrdir. Qərbi Avropadakı dövlətlərə - Fransa, Almaniya, Böyük Britaniya, Avstriya, Belçika, Niderland, Lüksemburq, İsveçrə aiddir.

Qərbi Avropa bir sıra iqtisadi göstəricilərinə görə, xüsusi ilə xarici ticarət dövriyyəsinə görə ABŞ-ı ötüb keçmişdir. Qərbi Avropa həm də mühüm maliyyə mərkəzidir. London və Sürixonun maliyyə "paytaxtları" hesab olunurlar. Qərbi Avropanın təsərrüfat siması ilk növbədə inkişaf etmiş sənaye ilə, xüsusilə maşınqayırma və kimya sənayesi ilə- təmsil olunur. Regionun iqtisadiyyatının özəyini Avropa Birliyi ölkələri, ilk növbədə G8 (Böyük 8lik dövlətlər) qrupuna daxil olan Almaniya, Böyük Britaniya, Fransa və İtaliya təşkil edir.

**Şimali Avropaya** – Norveç, İsveç və Finlandiya, Danimarka və İslandiya daxildir.







**Şərqi Avropa** – Belarusiya, Bolqaristan, Çexiya, Macarıstan, Moldova, Polşa, Ruminiya, Rusiya, Slovakiya, Ukrayna.

**Cənubi Avropaya** – İtaliya, Yunanistan, Albaniya, Portuqaliya, İspaniya, Serbiya, Makedoniya, Xorvatiya, Andorra, Malta, Vatikan, San-Marino, Sloveniya dövlətləri daxildir.





**Asiya ölkərində beynəlxalq turizm**

Yer kürəsi quru səthininüçdə birinə qədərini əhatə edən Asiya,dünyanın ən böyük qitəsidir. Avrasiya materikində yerləşən Asiya Avropadan UralvəQafqazdağları, Qara, Mərmərə, Aralıq və Qırmızı dəniz vasitəsilə ayrılırlar.

Qitəninin şərq sərhədlərində vulkan mənşəli adalar yerləşir və tez-tez zəlzələ olması ilə fərqlənir. Asiyada olan çoxlu dağ sistemləri , yaylalar,ərazisinini 25 faizini tutur. Himalay dünyanın ən yüksək dağı kimi Asiya regionunda yerləşir. Qaraqorum, Pamir, Tyan-Şan, Sayan, Hinduqus, Altay, Böyük Qafqaz dağları regionun əsas dağ sistemləridir. Hind-Qanq, Mesopotamiya, Böyük Çin, Turan , Qərbi Sibir qitənin ən böyük düzənlikləridir.

Asiyaya böyük miqdarda turist axını cəlb edən əsas amillər aşağıdakılardır.

- Turistlərin qəbulu üçün Asiyanın böyük və fövqəladə dərəcədə iri həcmli turizm bazarının olması;
- Asiya sahillərinin üç okean –Hind okeanı, Sakit okean, Şimal buzlu okeanla və onlarla dəniz, körfəzlərlə əhatələnməsi;
- Asiyada bütün iqlim qurşaqlarının mövcudluğu, landaşaftın və rekreasiya ehtiyatlarının zənginliyi;
- Asiyada dünya dinlərinin ən böyük ziyarət mərkəzlərinin yerləşməsi;
- Qitənin etnik rəngarəngliyi;





Belə əlverişli şəraitin olması ilə yanaşı Asiyada turizmin inkişafına olduqca böyük imkanlar yaradır. Asiya üçün əsas turizm bazarı Avropanın inkişaf etmiş ölkələri (Böyük Britaniya, Fransa, İtaliya, Almaniya, Niderland və s.), ABŞ və Kanadadır. Afrikadan daha çox axın, müsəlman ölkələrindən Məkkə və Mədəniyə, Hindistan, Pakistan və İrana yönəlir. Asiya ölkələrindən qitə daxili turist axını əsasən Yaponiya, Malayziya, Sinqapur, Taylana istiqamətlənir.

Asiya qitəsi də Avropa qitəsi kimi subregionlara bölünür.

Şərqi Asiya ölkələrinə Çin, Yaponiya, Koreya Respublikası, Flippin aiddir.

Cənub və cənub-şərqi Asiya ölkələrinə- Hindistan, İndoneziya, Tayland, Sinqapur, Malayziya aiddir.

Mərkəzi Asiya ölkələrinə-Qazaxıstan, Türkmənistan, Monqolustan, Qırğızıstan, Özbəkistan, Tacikistan dövlətləri aiddir.

Yaxın və orta şərq ölkələri- Türkiyə, İsrail, Livan, Suriya, İraq, Səudiyyə Ərəbistan, Oman, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Küveyt, Qətər, Bəhreyn dövlətləri aiddir





### 3.4.1. AMERİKANIN ƏSAS TURİZM ZONALARINI VURĞULAYIR

ŞİMALİ AMERİKADA BEYNƏLXALQ TURİZM

Şimali Amerika böyüklüyünə görə Avrasiya və Afrikadan sonra üçüncü materikdir. Materik bir neçə yarımadadan – Alyaska, Labrador, Kaliforniya, Yukatan, Floridadan ibarətdir. Qitə Şimal Buzlu okean, Sakitokean və Atlantik okeanla əhatələnmişdir. Cənubda qitə daralaraq, ensiz Panama kanalı vasitəsilə ayrılır. Şimali Amerikanın ən uca zirvəsi Mak-Kinli dağıdır, regionun cənub hissəsi səhra və sıx tropik meşələrlə əhatələnib.

Şimali Amerikanın ən alçaq yeri Ölüm dərəsi seysmik zonada yerləşir. Materikdə mədəniyyəti, dili, iqtisadi inkişafı müxtəlif səviyyəli ölkələr yerləşmişdir. İqtisadi cəhətdən ən güclü inişaf etmiş ABŞ, sonrakıyerləri Kanada və Meksika tutur. Bu region turizmin göstəricilərinəgörə dünyada Avropadan sonra ikinci yeri tutur. Dünya turizm hərəkatında Şimali Amerikanın xüsusi çəkisininolması,bir sıra əlverişli şərtlərin , o cümlədən aşağıdakı amillərin varlığı ilə izah edilir:

√ Atlantik, Sakit və Şimal Buzlu okeanları arasında ılverişli coğrafi mövqeyi:

√ Rəngarəng landşaftı, zəngin turizm ehtiyatları;

√ Turistlərin yerləşdirilməsi və yerdəyişməsi üçün güclü inkişafetmiş mehmanxana və nəqliyyat infastrukturunun olması;

Avropada olduğu kimi Şimali Amerikada da əsas turist axını regiondaxili xarakter daşıyır. ABŞ, Kanada və Meksika turist mübadiləsi rolunu oyanyırlar. Şimali Amerikaya ən çox turist gpndərən məz Avropadır. Əcnəbi turistlərin bu regiona səfərlərinin mövsümliyi, analoji olaraq Avropadakı kimidir. Bu, hər iki regionun təxmini eyni iqlim şəraitiə malik olmasından irəli gəlir. Turistlərin ölkədə orta qalma müddəti çox deyildir, belə ki, Kanada və Meksikadan ABŞ-a, və ABŞ-dan Kanadaya gedən tursitlər cəmi bir neçə gün qalırlar, çoxları hətta ekskursiyaçı mövqeyində olur və 24 saatdan artıq qalmırlar.

Şimali Amerika turist qəbuu üzrə dünyanının aparıcı regionlarından bir olmaqla yanaşı, həm də turist göndərən bölgədir. Şimali Amerika ən çox Asiya ölkələrinə - Yaponiya, Çin, Malayziya, İndoneziya və s. turist göndərir.

Şimali Amerikanın əsas turizm zonalarına- New York, Los Anceles, Las-Veqas, Kaliforniya, Florida , Moneral,Ottava, Niaqara şəlaləsi ətrafı,Mexiko şəhəri aiddir.

**Cənubi Amerikada beynəlxalq turizm**. Cənubi Amerika Yer kürəsində böyüklüyünə görə dördüncü qitədir. O, şimalda Karib dənizi tropiklərindən başlayaraq, cənubda Antarktikaya qədər ərazini əhatə edir. Cənubi Amerika ölkələrinə, Argentina, Braziliya, Çili, Peru, Venesuela, Uruqvay, Surinam aiddir.

Cənubi Amerika Qərb yarımkürəsində yerləşən iki materikdən biri və Amerika qitəsinin bir hissəsidir. Şimali Amerika ilə onu ensiz Panama bərzəxi birləşdirir, bərzəxin ensiz və alçaq hissəsində çəkilmiş Panama kanalı isə ayırır. Şimali Amerika ilə quru əlaqəsi əvvəllər mövcud olmamışdır.Bu əlaqə yalnız Kordilyer dağlarının yarandığı vaxt litosfer tavalarının sərhəddində qalxma prosesi nəticəsində meydana gəlmişdir.

Sululuğna görə də planetimizin ən bol sulu materiki Cənubi Amerika materikidir. Amazon dünyanın ən böyük çay sistemidir. And dağlarının mərkəzindən başlayan bu çaya 500-dən artıq çay birləşir. Amazon çayı uzunluğuna görə Nil çayından geri qalsa da, sululuğuna görə dünyada birinci yerdədir.

Cənubi Amerika ölkələri ölçüləri, əhalisinin miqdarı, təbii ehtiyatları, iqtisadi potensialına görə bir-birindən fərqlənirlər. Cənubi Amerikanın ən böyük dövləti Braziliya,ən kiçiyi isə Surinamdır. Dövlətlər arasında iqtisadi, sosial-siyasi, etnik və dil müxtəlifliyinin olması ilə yanaşı, onlara xas olan xüsusiyyətlər və qanunauyğunluqlar da mövcuddur. Cənubi Amerikaya gələn turist sayına görə

liderliyi Braziliya, daha sonra Argentina , Uruqvay və Çili edir.

Cənubi Amerikanın əsas turizm zonalarına Rio-de-Janeyro turizm mərkəzi, San-Paulu turizm zonası, Mar-del-Plata zonası,İqausu şəlaləsi ətrafı, Anhel şəlaləsi ətrafı aiddir.





**3.5.1. DÜNYA ÖLKƏLƏRİNİ XƏRİTƏDƏ GÖSTƏRİR**

AVROPANIN SİYASİ XƏRİTƏSİ



| Ölkələr | Paytaxt | Ölkələr | Paytaxt | Ölkələr | Paytaxt |
|---|---|---|---|---|---|
| Almaniya | *Berlin* | Italiya | *Roma* | Ukrayna | *Kiyev* |
| Böyük Britaniya | *London* | Ispaniya | *Madrid* | Ruminiya | *Buxarest* |
| Fransa | *Paris* | Portuqaliya | *Lissabon* | Bolqaristan | *Sofiya* |
| Niderland | *Amsterdam* | Yunanistan | *Afina* | Serbiya və Çernoqoriya | *Sarayevo* |
| Belçika | *Brüssel* | Andorra | *Andorra* | Macaristan | *Budapeşt* |
| Avstriya | *Vyana* | Malta | *Veletta* | Çexiya | *Praqa* |
| Lüksemburq | *Lüksemburq* | San-Marino | *San-Marino* | Slovakiya | *Bratislava* |
| İrlandiya | *Dublin* | Monako | *Monako* | Sloveniya | *Lüblyana* |
| Lixteynşteyn | *Vadus* | Vatikan | *Vatikan* | Maldova | *Kişinyov* |
| Isveç | *Stokholm* | Polşa | *Varşava* | Albaniya | *Tirana* |
| Norveç | *Oslo* | Latviya | *Riqa* | Makedoniya | *Skopye* |
| Finlandiya | *Helsinki* | Litva | *Vilnüs* | | |
| Danimarka | *Kopenhagen* | Estoniya | *Tallin* | | |
| Islansiya | *Reykyavik* | Belarus | *Minsk* | | |

**Asiyanın siyasi xəritəsi**



# TƏLİM NƏTİCƏSİ 3

| Ölkələr | Paytaxt | Ölkələr | Paytaxt | Ölkələr | Paytaxt |
|---|---|---|---|---|---|
| Azərbaycan | *Bakı* | Tacikistan | *Düşənbə* | Flippin | *Manila* |
| Ermənistan | *Irəvan* | Hindistan | *Dehli* | Laos | *Vyentyan* |
| Gürcüstan | *Tiflis* | Pakistan | *Islamabad* | Kamboca | *Pnompen* |
| Rusiya | *Moskva* | Banqladeş | *Dəkkə* | Bruney | *Bəndər-Səri-Bəqavan* |
| Çin | *Pekin* | Nepal | *Katmandu* | Sinqapur | *Sinqapur* |
| Yaponiya | *Tokio* | Şri-Lanka | *Kolombo* | Türkiyə | *ankara* |
| Koreya Xalq Demokratik Respublikası | *Pxenyan* | Butan | *Thimphu* | Kipr | *Nikosiya* |
| Cənubi Koreya | *Seul* | Maldiv | *Male* | Israil | *Təl-Əviv* |
| Tayvan | *Taybey* | Əfqanistan | *Kabul* | İran | *Tehran* |
| Qazaxıstan | *Astana* | indoneziya | *Cakarta* | Səudiyyə Ərəbistan | *Ər-Riyad* |
| Monqolustan | *Ulan-Bator* | Myanma | *Yanqon* | İraq | *Bağdad* |
| Türkmənistan | *Aşqabad* | Tailand | *Banqkok* | Yəmən | *Sənə* |
| Özbəkistan | *Daşkənd* | Malaziya | *Kuala-Lumpur* | Suriya | *Dəməşq* |
| Qırğızıstan | *Bişkək* | Vyetnam | *Hanoy* | Birləşmiş Ərəb Əmirlikləri | *Əbu-Dabi* |

**Şimali Amerikanın siyasi xəritəsi**



| **Ölkələr** | ***Paytaxt*** |
|---|---|
| Amerika Birləşmiş Ştatları | *Vaşinqton* |
| Kanada | *Ottava* |
| Meksika | *Mexiko* |

Cənubi Amerikanın siyasi xəritəsi



| Ölkələr | Paytaxt |
|---|---|
| Braziliya | *Brazil* |
| Qayana | *Corctaun* |
| Surinam | *Paramaribo* |
| Argentina | *Buenos-Ayres* |
| Paraqvay | *Asunsion* |
| Uruqvay | *Montevideo* |
| Peru | *Lima* |
| Kolombiya | *Boqoto* |
| Boliviya | *La-Pas* |
| Venesuela | *Karakas* |
| Çili | *Santyaqo* |
| Ekvador | *Kito* |

## 3.6. TƏLƏBƏLƏR ÜÇÜN FƏALİYYƏTLƏR



- Azərbaycanın əlverişli coğrafi mövqedə yerləşməsinin turizmin inkişafına verdiyi töhfələrdən məlumat toplayın.
- Azərbaycanın əsas turizm bölgələrini qruplaşdırın.
- Bakı-Abşeron turizm bölgəsinin turizm bazarında mövqeyinin üstün cəhətlərini müzakirə edin.
- Əhalinin turizmə olan ehtiyac meyarlarını araşdırın.
- Turizmin inkişafına dair qəbul edilən Dövlət proqramlarının rolunu qeyd edin.
- Azərbaycanın turizm bölgələrinin ixtisaslaşma istiqamətlənin fərqləndirin.
- Quba-Xaçmaz bölgəsində turizm əhəmiyyətli təbiət abidələri haqqında məlumat verin.
- Beynəlxalq turizm anlayışını müzakirə edin.
- Beynəlxalq turizmin əsas funksiyalarını qeyd edin.
- Dünya ölkələrinin turizm göstəriciləri haqqında məlumat toplayın.
- Avropa qitəsini əhatə edən okenları qruplaşdırın.
- Qərbi Avropa dövlətlərini inkişaf səviyyəsinə görə ardıcıl düzün.
- Asiyada turist axınına səbəb olacaq səbəbləri araşdırın.
- Qərbi Avropa ölkələrini digər Avropa ölkələrindən üstün keyfiyyətlər haqqında məlumat toplayın.
- Asiyanın əsas dağ sistemi və düzənliklərini qruplaşdırın.
- Şimali Amerikanın coğrafi yerləşmə şəraitini göstərin.

- Şimali Amerikaya aid olan ölkələri xəritə göstərin.
- Şimali Amerika ilə Avropanın turizm inkiafının oxşar və fərqli xüsusiyyətlərini müzakirə edin.
- CənubiAmerikaya aid olan ölkələri xəritədə göstərin.

### 3.7. QİYMƏTLƏNDİRMƏ

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

-

**“Azərbaycanın turizm bölgələri və mövcud olan kurort-rekresiya ehtiyatları barədə danışır”**

- Azərbaycanın ən alçaq və ən yüksək regionu hansıdır?
- Tarixi-memarlıqabidələrinin ən çox yayıldığı turizm region hansıdır?
- Azərbaycanda hansı kurort-turizm zonalarını tanıyırsınız?
- Rekreasiya nədir və onun hansı ehtiyatları var
- Balneoloji kurort imkanlarına malik olan hansı bölgələrimiz var?

**“Beynəlxalq turizmin inkişaf perspektivlərini qeyd edir”**

- Beynəlxaq turizm nədən bəhs edir?
- Beynəlxalq turizmin əsas məqsədləri nədən ibərətdir?
- Beynəlxalq turizmin inkişafı dünya ölkələri arasında hansı münasibətləri yaradır?
- Turizmin inkişafına görə liderlik edən ölkələr hansılardır?

**“Avropa və Asiya ölkələrinin əsas turizm zonalarını əlaqəndirir.”**

- Avropada turizmin inkişafına hansı amillər təsir edir?
- Avropanın hansı əsas subregionları vardır?
- “Benilüks” ölkələr dedikdə hansı dövlətlər nəzərdə tutulur?
- Asiyanı Avropadan hansı sərhəd xətləri ayırır?
- Şərqi Asiya ölkələri Avropadan fərqləndirən cəhətlər hansılardır?
- Asiyada turizmin inkişafına təsir edən amillər hansılardır

**“Amerikanın əsas turizm zonalarını vurğulayır.”**

- Şimali Amerikanın əsas turizm zonaları hansılardır?
- Cənubi Amerikanın əsas turizm zonaları hansılardır?
- Şimali və Cənubi Amerikanın turizm sənayesinin inişafına səbəb olan amillər nələrdir?
- Şimali Amerikanın coğrafi mövqeyi dedikdə nə başa düşürsünüz?

### 4.1.1. TURİSTLƏRİN HƏYAT VƏ SAĞLAMLIĞI ÜÇÜN ZƏRƏRLİ OLAN AMİLLƏR BARƏDƏ DANIŞIR

TURİZMIN TƏŞKİLİNDƏ TURİSTLƏRİN SAĞLAMLIĞININ MÜHAFİZƏSİ QAYDALARI




Bütün Dünyada turist xidmətləri və onların göstərilmə şəraiti turistlərin sağlamlıqlarına, əmlaklarına və ətraf mühitə təhlükə yaratmadan tələb edən qaydalara əməl olunması ilə həyata keçirilməsi məcburi hesab olunur. Turizmin təşkilində və onun həyata keçirilməsində ekskursiya xidməti də mühüm rol oynayır. Odur ki, turistin və ekskursiyaçının təhlükəsizliyini tələb edən qaydalar müəyyən edilmişdir. O qaydalara aşağıdakılar aid edilir.

İlk olaraq istənilən turist səfərə çıxarkən yeni həyal təcrübəsini əldə etməklə yanaşı, özünü təhlükəsiz, hiss etməlidir. Bu ən vacib həyat əhəmiyyətli şərtlərdən biridir. Xüsusi ilə də şəxsin hər hansı bir yeni xarici ölkəyə səyahəti zamanı bu daha önəmli olur.

Turizm xidmətlərinin göstərilməsi zamanı standartına uyğun olaraq məqbul risk səviyyəsi həm fövqəladə hallarda (təbii fəlakətlər zamanı və s), həm də adi şəraitdə turistlərin həyatı və sağlamlığı üçün təmin olunmalıdır.

Turist-ekskursiya xidmətləri zamanı insanların həyatı və sağlamlığı üçün risk halları aşağıdakı hallarda yarana bilir:

Zərərli amilləri (risk amilləri) turizmdə aşağıdakı kimi təsnif edilə bilər:

-müxtəlif formalarda zədələnmələr;
-ətraf mühitin təsiri;
-yanğın təhlükəsi;
-bioloji təsirlər;
-psixofizioloji yüklənmələr;
-təhlükəli radiasiya;
-kimyəvi təsirlər;
-toz və tüstülər artması;
-digər amillər;
-xüsusi risk amilləri.

**Zədələmə** o hallarda baş verir ki, maşın və mexanizmlərin hərəkəti zamanı əşyalar yerini dəyişsin, turizm fəaliyyətinin yerinə yetirilməsi üçün erqonomik şərait olmasın, hərəkət istiqamətində mürəkkəb relyef olsun, dağ süxurlarının (sürüşmələr, sellər, düzənliklər) yerdəyişmələri baş versin, rahat geyim əşyaları olmasın (narahat ayaqqabı, həddindən artıq dar geyimlər və s.) və sair.

Baş verəbiləcək zədələrin qarşısını almaq və yaxud da onun təsirini azaltmaq üçün görülə biləcək tədbirlərə aid ola bilər:

- hərəkətdə olan maşın və mexanizmlərdo əşyaların yer dəyişməsinin qarşısını almaq üçün onları bərkitmək, tutacaqlardan, qoruyucu vasitələrdən istifadə etmək, (geyim əşyaları dağ və sürüşkən ərazilərə uyğun seçilməlidir), ərazilərin kanat yollarında, dağlarda, çarhovuzlarda, dağ xizək yollarında təhlükəsizlik tədbirlərinə əməl olunmaqla;
- Fərdi mühafizə (turist marşrutunun mürəkkəb sahələrinin kəsişməsi vaxtı mühafizə üçün kəndir, baş dəbilqələri, buz qırmaq üçün alət, müxtəlif qarmaqlar) vasitələrindən istifadə etməklə;
- turist təchizatına və inventarlara erqonomik tələblərə riayət etməklə;
- yerləşmə yerləri və ictimai binalarda təhlükəsizlik qaydalarına, normalarına, nəqliyyat vasitələrinin texniki vəziyyətinə riayət etmək, turistlərin daşınmaları üçün istifadə edilən nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarət etməklə;
- istifadə edilən inventarın və avadanlıqların (liftlər, qaldırıcı mexanizmlər, arabalar və başqa) istismarı qaydalarına riayət etməklə;
- ehtimal oluna bilən risk amilləri barədə, onlardan necə xilas olmaq, zədələnmə hallarında hansı təcili tədbirlərin görülməsi və s. haqqında turistləri qabaqcadan məlumatlandırmaq və s.



**Ətraf mühit təsirləri** üçün müəyyən qaydalara əməl olunmalıdır. Məlumdur ki, ətraf mühitin insan orqanizminə təsiri kimi, temperaturun, nəmliyin, təzyiqin, küləyin, yağıntının kəskin yüksək və yaxud aşağı olması ilə qiymətləndirirlər. Mikroiqlim göstəriciləri, eləcə də otaqlarda və turistlərə xidmət edən (yataq, iaşə, klub və digər) nəqliyyat vasitələrində quraşdırılmış sanitar-gigiyena şəraiti tələblərə cavab verməlidir. Riskin bu amilinin zərərli təsirlərinin aradan qaldırılması üçün:

- turist tədbirinin keçirilməsi üçün ilin əlverişli fəsli, günü seçilməlidir;
- səmərəli turist marşrutları planlaşdırılmalıdır;
- rayonun hava xüsusiyyətləri nəzərə alınmalıdır;
- gözlənilməyən xoşagəlməyən hava şəraitindən sığortalanmaq üçün stğınacaqlı marşrutlar seçmək;
- xüsusi mühafizəsi olan nəqliyyat vasitələrindən, sığınacaqlardan və xəbərdaredici qurğusu olan, soyuducu və yaxud qızdırıcıya malik yerləşmə yerlərindən istifadə etmək;

fərdi mühafizə vasitələri, o cümlədən müvafiq avadanlıqlarla turistləri təmin etmək;

- marşrutda (iqlim şəraiti, hündürlüklər fərqləri) real və proqnozlaşdırılan şərtlər haqqında turistlərə vaxtında məlumat vermək.

**Bioloji amillər** kimi (patogen mikroorqanizmlər və onların həyat fəaliyyətinin məhsulları, zərərli mikroorqanizmlər, sürünən zəhərli bitkilər, həşəratlar, heyvanlar, yoluxucu xəstəliklərə səbəb olan bakteriyalar və başqa zərərli bioloji aləm, çirkli su mənbələri və s.) zərərli risklərdən xilas olmaq üçün turistlərə aşağıdakı məlumatlar verilməlidir:

- müəyyən edilmiş sanitariya normalarının və xidmət qaydalarına riayət edilməsinə;
- dezinfeksiya üçün avadanlıqların və preparatların tətbiqi, dezinseksiyalar, sterilləşdirmələr (dölsüzləşdirmələr), istehsal proseslərinin avtomatlaşdırması;
- obyektlərdə turistlərə (qablar, mətbəx avadanlığı, su mənbələrindən istifadə) xidmət göstərilməsi zamanı istifadə olunan qurğuların təchizatı, markalanması və zəruri təhlükəsizlik nişanlarının izahı;
- xidmət göstərən heyətin təyin olunmuş müddətdə tibbi müayinədən keçməsi;

Təhlükəli heyvanlar, balıqlar, sürünənlər, bitkilər, onların yayılma arealları ilə üst-üstə düşən turist marşrutu barədə qabaqcadan turistləri məlumatlandırmaq. Sadalananlardan zədə aldıqda ilkin təcili yardım formaları haqqında turistləri
məlumatlandırmaq.

**Riskin psixofizioloji amilləri** - bu fiziki və ruhi-əsəb yüklənmələridir. Psixofizioloji amillərin azaldılması və yaxud da aradana qaldırılmasına aşağıdakı hallara əməl etməklə xilas olmaq olar:

- turistlərə xidmət proqramının rasional qurması, yerdəyişmənin, çatdırmanın qrafikə uyğun olması, normal insan həyatına əməl olunması (normal yuxu, qidalanma, sanitar və məişət ehtiyaclarının təmin olunması ) ilə;
- turist qrupunun formalaşması vaxtı turistlərin psixofizioloji xüsusiyyətlərinin nəzərə alınması hesabına;

Təhlükəli şüaya aid olur: ultrabənövşəyi şüa dalğasından yüksək radioloji şüa. Turist marşrutlarında ultrabənövşəyi radiasiya təhlükəsi haqqında turistlərə xəbərdarlıq edilməlidir. Həmin şüanın hansı halda insan orqanizminə müsbət və yaxud mənfi təsirləri turistlərə izah olunmalıdır.Fərdi müdafiənin təşkili üçün (baş geyimləri, qoruyucu kremlər, geyimlər, günəşdən qoruyan eynəklər) vasitələrdən istifadəni turistlərə tövsiyə olunmalıdır.

**Riskin kimyəvi amillərinə** zəhərli, qıcıqlandırıcı, həssaslığı artıran maddələr daxildir. Turistlərə xidmətdə belə riskli amillərin qarşısını almaq üçün aşağıdakı tədbirlərin görülməsinə diqqət yetirilməlidir: -havada, suda, torpaqda, qida məhsullarında və başqa bioloji mühitlərdə zərərli kimyəvi maddələrin qəbul edilmiş normada olmasına müntəzəm nəzarəti həyata keçirmək.

Yüksək səviyyədə toz və qaz ilə çirklənmə.Turistlərə xidmət zonalarında havanın zərərli qaz və toz maddələrlə çirklənmə səviyyəsi daim diqqətdə olmalıdır.

Digər risk amilləri. Riskin başqa amillərinə xidmət və onun nominal xarakteristikası haqqında lazımlı informasiyanın olmamasıdır. Odur ki, digər ehtimal oluna bilən risk amillərinə aid ola bilər.

### 4.2.1. TURİSTLƏRİN SIĞORTALANMASI PROSESİNİN VACİBLİYİNİ VURĞULAYIR

TURİSTLƏRİN SIĞORTALANMASI PROSESLƏRİ




Turizmdə təhlükəsizlik turistlərin şəxsi təhlükəsizliyinin təmin olunması və onların əmlakının qorunması, onların ləyaqətinə, hüquq və azadlıqlarına hörmət, turizm obyektlərinin inamlı və ətraf mühitin əlverişli olmasıdır. Sığorta hər bir insanın sağlamlığının və rahatlığının təminatıdır. Ələxsus da yad ölkəyə gəzməyə, turist səfərinə gedən şəxs üçün sağlamlıq sığortası olduqca vacibdir. Təsadüfi deyil ki, turizm şirkətləri tərəfindən təqdim edilən turpaketlərın əsas bəndlərindən biri sığorta ilə bağlıdır. Bəs bu sığorta hansı prosedurlarla həyata keçirilir və ümumiyyətlə, turistə şirkət tərəfindən təklif edilən sığorta hansı üstünlükləri verir?

Onu qeyd edək ki, xarici ölkələrdə insanlar turist səfərinə çıxdıqları zaman bu məsələyə ciddi önəm verirlər. Hətta hansı sığorta şirkəti tərəfindən və hansı məbləğdə sığorta olunmaları onlar üçün əhəmiyyət daşıyır. Turistlər səfər zamanı onların səhhətinə, əşyalarına vurulan hər hansı ziyanla və yaxud digər şəxslərə eytiyyatsızlıqdan vura bildiyləri zərərlə üzləşdiyi zaman həm özlərinə, həm də turizm agentliyinə, nəqliyyat şirkətinə, yerləşdiyi otelə problemlər yarada bilər. Bu risklərin minimuma endirilməsinin üsullarından biri də sığortadır.




Hər bir insanın xaricə səfəri zamanı müxtəlif problemlərlə üz-üzə qalmaması üçün sığorta olunması vacib şərtlərdən biridir. Turizm şirkətləri tərəfindən müştəriyə təqdim edilən turpaketdə mütləq sığorta da yer almalıdır. Amma bəzi hallarda bizim vətəndaşlar 10-15 manata qənaət etmək üçün sığorta olunmaqdan imtina edirlər. Bu da nəticədə onların səfər zamanı xəstələndikdə və yaxud səhhətləri ilə bağlı digər problemlə üzləşdikdə qat-qat daha böyük məbləğdə xərcə düşməsinə səbəb olur. «Sığorta polisi»ndə vətəndaşın səfər zamanı aldığı xəsarətin ağırlığından və yüngüllüyündən asılı olaraq, turistə 30 min avroya qədər pul ödənilməsi nəzərdə tutulur. Turistlərin sığortalanması sığorta və turizm şirkətləri arasında müqavilə əsasında həyata keçirilir.

Səyahət zamanı turistlərin sığortalanması onların şəxsi həyatını və əmlakını qorumaqdan ötrü aparılır. Sığorta münasibəti arzuedilməz hadisə baş verdikdə, onların qorunması sığorta olunanların öhdəlikləri pul vəsaitləri hesabına yaranmış maliyyə fondları vasitəsilə həyata keçirilir. Zərərçəkənə dəymiş ziyanın ödənilməsi sığorta müqaviləsində (sığorta polisi) müəyyən edilir.

Sığorta müqaviləsində göstərilən ümumi sığorta məqbləği hər bir hadisə və ya sığorta müddəti ərzində bütün hadisələr üzrə sığortaçı tərəfindən ödəniləcək maksimal məbləğdir.

Sığorta haqqı sığorta müqaviləsinə müvafiq olaraq, sığortaçıya sığortalı tərəfdən ödənməli olan pul məbləğidir.

Sığorta polisi elə bir sənəddir ki, bunun əsasında sığorta təşkilatı turistlərə bədbəxt hadisələr zamanı tibbi yardım xərclərini, habelə xəsarət almışların daşınma xərclərini ödəyir.

Sığortanın üç əsas növü tətbiq olunur:

- əmlak sığortası- burada sığorta obyekti müxtəlif maddi qiymətli olur;
- şəxsi sığortalanma – burada fiziki şəxslərin həyatında baş verən müxtəlif sığorta mnasibətləri, o cümlədən tibbi sığorta əsas yer tutur.
- Məsuliyyət sığortası – burada üçüncü şəxsə dəymiş ziyanın ödənilməsi üzrə öhdəliklərdir.

### 4.3.1. İSTEHSALATDA TƏHLÜKƏSİZLİK QAYDALARINA VƏ TURİZM XİDMƏTLƏRİ ZAMANI ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ

TƏHLÜKƏZİLİK QAYDALARINA RİAYƏT EDİLMƏLİDİR

Mülkiyyət formasından asılı olmayaraq, bütün obyektlərin, o cümlədən ictimai iaşə obyektləri, mehmanxana və mehmanxana tipli müəssisələrdə və s. yanğından, qəfil yaranacaq digər hadisələrə qarşı vasitə və ilkin avadanlıqlar quraşdırılmalıdır. İstehsalatda yaranacaq hər hansı bir yanğından qorunmaq üçün yanğından mühafizə sistemləri, yanğına qarşı vasitə və yanğın xəbərverici qurğuları ilə təchiz olunmalıdır.

İstehsalatda iş proesesi zamanı, mətbəx və digər bölmələrdə elektrik qurğularının, kondisionerlərin, isitmə və qaz sobalarının istismarı zamanı təhlükəsizlik qaydalarına riayət olunmasına gündəlik nəzarət olunmalıdır. Bunun üçün hər bir obyektin özünün texniki kommisiya rəhbərliyi olmalı və ildə iki dəfədən az olmayaraq texniki baxış keçirilməli, yaranmış problemi yerindəcə həll etməlidir.

**Turizm və ətraf mühitin mühafizəsi**. Mühafizə olunan ərazilərin yaradılması bura gələn istirahətçilərə məyyən şərait daxilində xidmət göstərilməsini nəzərdə tutur. Bunlara gəzinti üçün xüsusi cığırların salınması, ekskursiyaların aparılması, qidalanması üçün xüsusi yerlərin müəyyən edilməsi daxildir.

Ətraf mühit turizm üçün qorunduğu kimi, elə turistin özündən də qorunmalıdır. Turizm fəaliyyəti təbiəti mühafizə və nəsillər üçün irsin saxlanılması məqsədini güdməlidir. Bu isə turizmin ekoloji olması deməkdir, yəni turizm ümumbəşər və milli varlığın saxlanmasına yönəldilmiş davranış mədəniyyəti və hərəkətlər obrazıdır. Turizmin ekoloji yönümlü olması aşağıdakı qaydalara riayət etməsi ilə bağlıdır.

- Qorunan əraziləri yalnız müdiriyyətin icazəsi ilə ziyarət etmək;
- Çay və göl sahillərində avtomaşınları yumamaq;
- Sintetik yuyucu vasitəlrindən istifadə etməmək;
- Balıqçılıq, ovçuluqla yalnız lisenziya tələblərinə uyğun və müəyyən edilmiş müddətlərdə məşğul olmaq;
- Özündən sonra zibil saxlamamaq;
- Təbiət ərazilərində hər-hansı xatirə yazıları qoymamaq;
- Sönməmiş ocaqlar qoymamaq, kibritləri söndürmədən tullamamaq və s.

Ekoloqlar "turist zibilinin" təbii şəraitdə çürümə müddətini müəyyən etmişlər. Belə ki;

- Portağal və banan qabığı -0.5 il
- Pambıq parça, kağız-0,5 il
- Süd paketləri, yun məmulatları- 5 il
- Siqaret qalıqları – 12 il ilə qədər
- Metal məmulatları – 100 ilə qədər
- Şüşə və plastik qablar –demək olar ki, çürümür.

Bununla belə nəticəyə gəlmək olar ki, vətəndaşlığından asılı olamayaraq, hər kəs ziyarət etdiyi əraziləri qorumaq və , təbii, mədəni-tarixi zənginliyi saxlamaq üçün cəhdlər etməlidirlər.

Ekologiyanın qorunması, onun turizm fəaliyyəti ilə bağlılığı "Azərbaycan Respublikasının ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Milli Proqramda öz əksini tapmışdır.

### 4.4.1. SƏYAHƏT ZAMANI YARANACAQ HƏR HANSI BİR FÖVQƏLADƏ HALLARDA İLK TİBBİ YARDIM GÖSTƏRİR

TURİSTLƏRIN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA TİBBİ SIĞORTANIN FAYDALARI

Təhlükəsizliyin təminatı ölkə ərazisində səyahətçilərin, turistlərin və ekskursantların gəlişi, mehmanxada yerləşdirilməsi, onların sağlamlığı, həyat və mülklərinin toxunulmazlığına təminat verən milli qanunvericilik çərçivəsində tam tədbirlər kompleksini əhatə edir.

1989-cu ildə Haaqada (Niderland) keçirilən dünya turizm konfrançılarının tövsiyyələrində

qeyd edildiyi kimi , turizmin normal fəaliyyət göstərməsi və inkişafı üçün səyahətçilərin təhlükəsizliyi, onların sağlamlığının və əmlakının qorunmasına ehtiyac duyulur. Bunu aşağıdakı yollarla nail olmaq lazımdır:

- Səyahətlərin və turistlərin qaldığı yerlərdə təhlükəsizlik normalarının işlənin hazırlanması və həyata keçirilməsi;
- İctimaiyyətin məlumatlandırılması və maarifləndirilməsi;
- Turistlərin təhlükəsizliyi, xüsusilə ekstermal vəziyyətlərlə bağlı problemlərin həlli çərçivəsinin yaradılması;
- İkitərəfli regional və ümumdünya səviyyəsində beynəlxalq əməkdaşlıq.

Turizm təhlükəsizliyinin təminatı ilə bağlı bir neçə təsəvvür mövcuddur:



**Birincisi**, turizmin milli inkişafının və beynəlxalq əməkdaşlığın ən mühüm vəzifəsi turistlərin şəxsi təhlkəsizliyi və onların qorunmasının təmin olunmasıdır.

**İkincisi**, turistlərin kütləvi yaşadığı yerlərdə ətraf mhitin, onların obyetklərinin təhlükəsizliyidir.

**Üçüncüsü**, turistləri qəbul edən ölkənin milli maraqlarının təhlükəsuzliyidir.

Səyahət zamanı bəzən gözlənilməz qəfil xəstəlik və bədbəxt hadisələr baş verir. əvvəlki mövzularımızda turistlərin sığortalanma növlərini öyrənmişdik. Sığortanın ən əsas növlərindən biri məhz tibbi sığortadır. Sığorta haqqı növündən asılı olaraq 6-50 dollar arasında dəyişir. Tibbi xidmətin yksək olması ilə əlaqədar olaraq, bir çox ölkələr turistlərin tibbi sığortalanmasını tələb edir. Məsələn, Şengen zonası ölkələrinə daxil olamq istəyən turistlərin mütləq tibbi sığortası vacibdir.

Minimal tibbi sığorta xidmətləri aşağıdakıları əhatə edir:

- Sığorta məbləği daxilində təcili yardım;
- Qəfil xəstəlik və ya bədbəxt hadisə zamanı bədən xəsərati almış şəxsin yaxınlıqdakı xəstəxanaya çatdırılması;
- Sığortaçının daimi yaşadığı ölkədə yaxın hava limanına çatdırılması;
- Sığortalının yanında olan yeniyetmənin bir tərəfə ekonom-klassla çatdırılması;
- Sığortalının ölüm zamanı cənazənin vətəninə qaytarılması;
- Servis mərkəzi ilə telefon danışıqlarının ödənilməsi;

Beynəlxalq sığorta polisləri bütün ölkələrdə qəbul olunur. əgər turistin sığortalanması turizm yollayıçının tərkibində yoxdursa, səyahət zamanı bu xərclərin hamısını şəxsin özü ödəməlidir.

Lakin son zamanlarda xaricə gedən turistlərin tibbi sığortalanması səfəri təşkil edən turizm firması tərəfindən zəruri qaydada aparılır. Sığorta məbləği bibaşa yollayışın qiymətinə əlavə olunur.

Turistlərin həyatına hər hansı bir ölkədə yaranmış təhlükə haqqında məlumatı milli turizm təşkilatı dövlət televiziya kanalları ilə əhaliyə çatdırmalıdır. Beynəlxalq turizm təcrbəsində tez-tez rast gəlmək olar ki, ABŞ-ın dövlət departamenti mütamadi olaraq, Amerika vətəndaşlarına təhlkəli olan ölkələrin siyahısını çap etdirir və həmin ölkələrə getməməyi tövsiyə edir.

Sığorta hadisəsi baş verdikdə sığortalının hərəkətləri.Sığorta hadisəsi baş verdikdə sığortalının təcili sığortaedənin servis mərkəzinə telefonla zəng etməlidir. Sığortaçının servis mərkəzi sığortalının tələb olunan tibbi , tibbi-nəqliyyat və digər xidmətlərin təqdim olunmasını təşkil edir. Servis mərkəzi ilə əlaqə saxlamaq mümükn olmadıqda, sığortalı müstəqil olaraq sığorta maviləsini təqdim edərək yaxındakı tibb idarəsinə müraciət edə bilər. Sığortalı özü bütün xərcləri ödədiyi halda, geri qayıdarkən yazılı surətdə servis mərkəzinə müraciət etməli və aşağıdakı sənədləri təqdim etməlidir:

- Şəxsiyyəti təsdiq edən sənədləri;
- Xərclərin əvəzinin ödənilməsi üçün ərizə;
- Sığorta müqaviləsi
- Tibbi mərkəzdən aldığı hesab –arayışın əsli, diaqnozun göstərilməsi, müraciətin tarixi, müalicə müddəti, yekun məbləğ;
- Xəstəliklə bağlı həkimin yazdığı reseptlərin əsli;
- Laboratoriya analizlərinin keçirilməsi üçün həkimin göndəriş sənədi;

Səyahətdən qayıtdıqdan sonra 30 gün ərzində ərizə və bütün sənədlər sığortaçıya təqdim olunamalıdır. Sığorta ödənişi sığortaedən tərəfindən 13 iş günü müddətində həyata keçirilir.

Xərclərin bir hissəsi sığortalıya ödənilmir. Bu ödənilməmiş hissə **Şərtsiz franşiza** adlanır. Şərtsiz franşiza sığorta hadisəsi baş verdiyi halda sığortaçı tərəfindən ödənilməyən sığortalının xərclərinin bir hissəsidir. Hazırkı sığorta qaydaları ilə tibbi xərclərə dair bir sığorta hadisəsi üzrə 50 avro və ya 50 dollar məbləğində şərtsiz franşiza tətbiq edilir.

### 4.5. TƏLƏBƏLƏR ÜÇÜN FƏALİYYƏTLƏR



- Turist-ekskursiya xidmətləri zamanı zərərli amilləri araşdırın.
- Bioloji amillərə aid olan ünsürləri qeyd edin.
- Riskin psixofizioloji amillərinin izahını göstərin.

- Ətraf mühit təsirləri haqqında məlumat toplayın.
- Turistlərin sığortalanma səbəblərini müzakirə edin.
- "Sığorta polisi" anlayışını ətraflı araşdırın.
- "Sığorta haqqı" anlayışını ətraflı araşdırın.
- Sığortanın tətbiq olunma növləri barədə məlumat əldə edin.
- Təhlükəsizlik qaydalarına riayət olunma səbəblərini müzakirə edin.
- Yaranmış fövqəl hadisələrə qarşı tədbirlər haqqında məlumat toplayın.
- Ətraf mühit anlayışını araşdırın.
- Turistlərin ətraf mühitə dair vəzifələrini müzakirə edin.
- "Şərtsiz franşiza" anlayışını araşdırın.
- Turistlərin təhlükəsizliyinin təmin olunmasında qəbul edilmiş tövsiyələri müzakirə edin.
- Sığorta hadisəsi baş verdikdə sığortalının hərəkətlərini müəyyən edin.

### 4.6. QİYMƏTLƏNDİRMƏ

**"Turistlərin həyat və sağlamlığı üçün zərərli olan amillər barədə danışır."**

- Turist-ekskursiya xidmətləri zamanı insanların həyatı və sağlamlığı üçün risk halları hansılardır?
- Turist-ekskursiya xidmətləri zamanı baş vermə ehtimalı olan zədələr hansılar ola bilər?
- Turist-ekskursiya xidmətləri zamanı baş vermə ehtimalı olan zədələrdən necə qorunmaq olar?
- Turist-ekskursiya zamanı riskli amillərə hansılar aid ola bilər?

**"Turistlərin sığortalanması prosesinin vacibliyini vurğulayır".**

- Turistlərin sığortalanması nə üçün aparılır?
- Hansı sığorta növləri mövcuddur?
- Məsuliyyət sığortası nədir?
- Şəxsi sığortalanma nədir?
-

**" İstehsalatda təhlükəsizlik qaydalarına və turizm xidmətləri zamanı ətraf mühitin mühafizəsi."**

- Hansı təhlükəszilik qaydaları mövcuddur?
- Ətraf mühitin mühafizəsi dedikdə nə başa düşürsünüz?

- Ətraf mühiti qorumaq üçün hansı toxunulmazlıq qaydaları var?

**“ Səyahət zamanı yaranacaq hər hansı bir fövqəladə hallarda ilk tibbi yardım göstərir”.**

- Turistlərin tibbi sığortalanmasının nə kimi əhəmiyyəti vardır?
- Minimal tibbi sığorta xidmətlərinə nə aiddir?
- Fövqəl hadisə zamanı ilk tibbi yardım prosesləri necə aparılır?
- “Şərtsiz franşiza” nədir və tətbiqi necə həyata keçirilir?

## ƏDƏBİYYAT


1. “Azərbaycan Respublikasında turizm və onun inkişafı”, H. Soltanova
2. M.M.Ağakərimov “Ekskursiya və ekskursiya rəhbəri”
3. “Turizm fəaliyyətinin tənzimlənməsi” , B.Bilalov
4. “Turizmdə nəqliyyat xidmətlərinin təşkili”Ş.Ə.Heydərov
5. “Ekoloji turizm”, Ə.Əlimərdan
6. “Gəzməyə vətən yaxşı”, Vətənpərvər Maarifçi Gənclər Birliyi.
7. “Azərbaycan tarixi”, Mahmud İsmayıl
8. “Mədəniyyət tarixi və nəzəriyyəsi”, ADMİU-nun nəşri
9. “Turizm tarixi”, İlqar Hüseynov
10. “Beynəlxalq turizm coğrafiyası”, İlqar Hüseynov
11. “Beynəlxalq turizm coğrafiyası”, C.Məmmədov
12. Turizmin davamlı inkişafı yerli planlaşdırma üzrə mütəxəssislər üçün vəsait
13. “Turizmin əsasları”, İlqar Hüseynov
14. M.M.Ağakərimov “Otel”
15. “Azərbaycanın tarixi-memarlıq abidələri”, Məlumat kitabçası,
16. N.H.Qurbanov, Y.S.Hüseynova, L.T.Əmiraslanova “İaşə müəssisələrində xidmətin təşkili” dərslik Bakı 2012
17. Ş.Ə.Heydərov “ Turizmdə nəqliyyat xidmətlərinin təşkli”
18. Beynəlxalq jurnal “Turizm və qonaqpərvərlik tədqiqatları”
19. Prezident kitabxanası “Azərbaycan turizmi: bu gün və sabah”
20. Ə.Cabbarov “Turizm marşurutları və ekskursiya işinin təşkili”
21. S. Yeganlı , B.Bilalov “Turizm”
22. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi “Turist ekskursiya xidmətlərinin sertifikatlaşdırılması” – Hüquqi normativ sənədlər
23. E.İsmayılova “Tarixi və mədəni turizm”
24. İnternet resusları